Xalqın qəzeti!

# Xalq qəzeti

№ 157 (30561) 27 iyul 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan Transqafqaz daşımalarının baş yoludur

*Ötən 6 ayda ərazimizlə 7,8 milyon ton yük aparılıb*



**Bu ilin I yarısında Azərbaycan ərazisi ilə daşınan tranzit yüklərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 14 faiz artaraq 7,8 milyon ton olub. Azərbaycan və Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Bakıda keçirilən 8-ci iclasında bu barədə məlumat verən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov daha son 20 ildə Azərbaycan nəqliyyat infrastrukturuna böyük investisiyalar yatırıldığını, geosiyasi vəziyyətin dəyişməsi fonunda respublikamızın ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinə, xüsusilə Orta və Şimal–Cənub dəhlizlərinə marağın artdığını, Azərbaycan tərəfdaşları ilə birlikdə Orta Dəhlizin daha da inkişafı üçün intensiv iş apardığını bildirib.**

Tranzit yüklərin daşınmasında əldə edilən uğurlar isə təbii ki, bu sahəyə yönəldilən böyük həcmdə sərmayələrin, o cümlədən, nəqliyyat sektorunda reallaşdırılan islahatların, respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesinə fəal şəkildə qoşulmasının məntiqi nəticəsidir.

Yerüstü Nəqliyyat Agentliyindən aldığımız məlumata əsasən, Azərbaycanın beynəlxalq yükdaşımalarda fəaliyyəti son illərdə güclənib, beynəlxalq avtomobil daşımalarına yönəldilən nəqliyyat vasitələrinin sayı isə kəskin çoxalıb. Buna isə nəqliyyat sektorunda şəffaflaşmanın diqqət mərkəzində saxlanılması, "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınmasına xüsusi önəm verilməsi, fəaliyyətsiz daşıyıcıların işinin bərpası, habelə bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına nail olunub.

**(ardı 7-ci səhifədə)**

## Silah sazişi, yoxsa regional təxribat motivi?



Səhifə ⇨ 6

## Sülhün Qafqaz xarakteri

Bölgədə sülh prosesinin qarşısını Qərb "şlaqbaumları" da kəsə bilməz



**Keçən ilin dekabrında qələmə aldığımız məqalənin sərlövhəsi belə idi: "Bakı sülhə səs verir! Bəs İrəvan?". O zaman və ondan bir neçə ay əvvəl Ermənistanın rəsmi və qeyri-rəsmi düşərgəsindən səslənən nikbin açıqlamalar, ayrı-ayrı ekspertlərin, sabiq səlahiyyət sahiblərinin bəyanatları kənar müşahidəçidə sülhün, az qala, qapının kandarını kəsdirdiyi qənaətini yaradırdı.**

Hətta hayların baş diplomatı Ararat Mirzoyan "sülh sazişi yaxın iki ay ərzində imzalana bilər" kimi optimizmlə yüklənmiş açıqlama da vermişdi. Bu qənaətə gəlməyə ən çox əsas verən amil hər iki tərəfdən Bakı və İrəvan arasında vasitəçisiz sülh dialoqunun tərəfdarlarının getdikcə artması, Ermənistan cəmiyyətinin barışığa hazır olması barədə yayılan xəbərlər idi. "Ermənistan ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsini imzalamağa hazırdır". İqtidardakı "Vətəndaş sazişi" partiyasının parlamentdəki təmsilçisi Sarkis Xandanyan da bunu əminliklə söyləmişdi.

Bunları oxucuların yadına salmaqda məqsədimiz səkkiz ay bundan əvvəl Ermənistan və Azərbaycan arasında sülhün əldə olunacağı ilə bağlı yaranan ümidlərin sonradan özünü doğrultmamasının səbəblərinə işıq salmaqdır.

*(ardı 3-cü səhifədə)*

## Sülh gündəminə zidd manipulyasiya

Ermənistan MN-nin cavabına təfərrüatlı baxış

**"Bildiririk ki, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcəkdir". Çoxdandı Azərbaycanın Müdafiə Nazirliyi sırf belə fikirlərin əksini tapdığı bəyanat yaymırdı. Axırıncı dəfə qurum 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən əvvəl bu ritorikaya üstünlük vermişdi. Sonra yaşananlar hər birimizin yaxşı yadındadır. Elə Ermənistan rəhbərliyinin də həmçinin.**



Qeyd edək ki, 2023-cü ildə də Azərbaycan–Ermənistan sülh gündəliyi aktiv idi. Cənubi Qafqaz regionunun gündəminə tərəflər arasında barışıq sazişinin tezliklə imzalanacağına dair gözləntilər hakim kəsilmişdi. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyan ərazilərimizdə qalan qeyri-qanuni erməni hərbi birləşmələrini çıxarmaq, bölgədəki separatçı rejimi aradan qaldırmaqdansa, bildirmişdi ki, Qarabağın özünün seçilmiş hakimiyyəti var. Hazırda isə "seçilmiş hakimiyyət"in gəlmiş-keçmiş bütün başbilənlərinin yeri Bakı həbsxanasıdır...

Sözümüz ondadır ki, ölkəmizin Müdafiə Nazirliyi boş yerə bəyanat vermir. Məlum olduğu kimi, qurumun yaydığı sənəd son günlər Azərbaycan–Ermənistan sərhədində qarşı tərəfdən atəşkəsin pozulması halları ilə bağlıdır. Bəyanatda xatırlanıb ki, Ermənistan Kəlbəcərdə ağır silahlar və Tovuz istiqamətində kvadrokopter tətbiq etməklə təxribatlar törədib. Maraqlı məqam isə bu sayaq təxribatların ilk dəfə baş vermədiyinin, davamlı xarakter daşıdığının vurğulanmasıdır. Deməli, nazirlik hər şeyə reaksiya vermirmiş, səbirlə gözləyirmiş. Amma artıq səbir tükənib və yazımızın birinci cümləsində nəzərə çatdırdığımız fikirlər bunun təsdiqidir.

Əslində, MN-nin bəyanatı, bütövlükdə, dövlətimizin mövqeyi, cəmiyyətimizin hadisə və proseslərə ümumiləşdirilmiş baxışıdır. Baxış ondan ibarətdir ki, ABŞ-nin Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən "Avropa Sülh Fondu" adı altında ölkəyə ilkin mərhələdə on milyon avro dəyərində hərbi yardımın göstərilməsi İrəvanı təxribatlar törətməyə şirnikləndirir. Ən əsası isə nazirlik bu kimi tədbirlərlə Ermənistanın Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırıldığı fikri üzərində dayanır.

***(ardı 4-cü səhifədə)***

## Baqrat "payız turnesi"nə hazırlaşır



Səhifə ⇨ 3-4

## "Paris-2024": Olimpiya həyəcanı başlandı



Səhifə ⇨ 12

# “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş”in təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2024-cü il iyunun 6-da Ankara şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2024-cü il**

# “Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sahəsində hərbi kəşfiyyat üzrə əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2024-cü il iyunun 7-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sahəsində hərbi kəşfiyyat üzrə əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2024-cü il**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Balakən | Balakən, Şəki, Qax, Zaqatala, Oğuz, Qəbələ | 03 |
| 2. | **Baş prokuror** Kamran Əliyev | Balakən | Balakən, Zaqatala, Qax | 06 |
| 3. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Zaqatala | Zaqatala, Balakən, Qax | 06 |
| 4. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 08 |
| 5. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Beyləqan | Beyləqan, Füzuli, Xocavənd | 09 |
| 6. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Şəki | Şəki, Qax | 09 |
| 7. | **Baş prokuror** Kamran Əliyev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 16 |
| 8. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı | 16 |
| 9. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Göyçay | Göyçay, Ağdaş | 16 |
| 10. | **Ədliyyə naziri** Fərid Əhmədov | Şamaxı | Şamaxı, İsmayıllı, Qəbələ, Ağsu, Göyçay | 19 |
| 11. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Bərdə | Bərdə, Ağdam | 19 |
| 12. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Bərdə | Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Goranboy, Xocalı, Xocavənd, Laçın | 20 |
| 13. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 23 |
| 14. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Göygöl | Göygöl, Daşkəsən | 23 |
| 15. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Şəmkir | Şəmkir, Gədəbəy | 23 |
| 16. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Xaçmaz | Xaçmaz, Qusar | 23 |
| 17. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Goranboy | Goranboy, Naftalan, Xocalı | 23 |
| 18. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | İsmayıllı | İsmayıllı, Ağsu | 23 |
| 19. | **Baş prokuror** Kamran Əliyev | Şəki | Şəki, Mingəçevir, Oğuz | 27 |
| 20. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Siyəzən | Siyəzən, Xızı | 27 |
| 21. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Şəmkir | Şəmkir, Gədəbəy | 27 |
| 22. | **Energetika naziri** Pərviz Şahbazov | Hacıqabul | Hacıqabul, Şirvan, Salyan, Sabirabad, Kürdəmir | 29 |
| 23. | **Mədəniyyət naziri** Adil Kərimli | Astara | Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı | 29 |
| 24. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Gədəbəy | Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax | 29 |
| 25. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | Xaçmaz | Xaçmaz, Qusar | 29 |
| 26. | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Qəbələ | Qəbələ, Oğuz, İsmayıllı | 29 |
| 27. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Ağdaş | Ağdaş, Göyçay | 30 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Maldiv Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Muizzuya

**Hörmətli cənab Prezident!**

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Maldiv xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2024-cü il**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin avqust ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 2,9,16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7,22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru | 14 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi | 15 |

| | |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | **20** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **21** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **23** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **27** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | **27** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | **28** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | **28** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **30** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **30** |
| *** | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **29** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Kamran Əliyev Kadir Özkaya ilə görüşüb

**İyulun 26-da Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya ilə görüşüb.**

Qonaqları salamlayan Baş prokuror qardaş Türkiyə ilə ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” və türk xalqının ulu öndəri Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” fəlsəfəsi ilə tarixən milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdiyini bildirərək, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycan–Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksədiyini qeyd edib.

Baş prokuror Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda danışaraq, bu ilin iyun ayında Xankəndi Şəhər Prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyini bildirib.



Kamran Əliyev cari ilin noyabr ayında dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un və cari ilin 29 sentyabr – 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyi barədə qonaqları məlumatlandırıb.

Türk Dövlətləri Təşkilatı çərçivəsində prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. 2021-ci ildə Bakıda təsis edilmiş TDT Baş Prokurorlar Şurasının Bişkekdə sayca üçüncü iclasının keçirilməsi hüquq-mühafizə orqanlarımız arasında davamlı və səmərəli fəaliyyətin bariz nümunəsi olduğu vurğulanıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Kadir Özkaya iki ölkə arasında bütün sahələri əhatə edən münasibətlərin yüksək səviyyədə olmasından bəhs edib.

**XQ**

(əvvəli 1-ci səhifədə)

# Sülhün Qafqaz xarakteri

## Sülhə mane olan niyyətlər

2023-cü ilin dekabrında ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin Bakı və İrəvanı Vaşinqtona dəvət etməsi Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında 2024-cü ilin yanvarında Vaşinqtonda keçirilən görüşün arzuedilən sonluqla bitəcəyinə Bakıdan çox İrəvan inanırdı. Amma Ermənistan hakimiyyətində heç də hamı Paşinyanın bu nikbinliyini bölüşmürdü. Məsələn, hökumətin xüsusi tapşırıqlar üzrə səfiri Edmun Marukyan ölkənin ictimai televiziyasına verdiyi müsahibəsində 2023-cü ildə iki ölkə arasında yekun sülh razılaşmasının imzalanmayacağını qəti şəkildə bəyan etdi. Baxmayaraq ki, sülh prosesinin müsbət sonluqla reallaşacağına ümidlər, həqiqətən də, böyük idi.

Yanvar ayında Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ümumi sözlərdən ibarət açıqlamalarla başa çatan Vaşinqton görüşünün ardınca sülh danışıqlarında bir müddət fasilə yarandı. Sonradan məlum olacaq ki, bu “antrakt” İrəvana “üçlər”in aprel görüşünə hazırlıq məqsədi üçün lazım imiş. ABŞ–Brüssel–Ermənistan “üçlük”ünün Belçikanın paytaxtında gerçəkləşən 5 aprel toplantısı Azərbaycana təkcə diplomatik deyil, sonradan məlum olduğu kimi, həm də hərbi xarakterli təzyiq cəhdi idi. Daha doğrusu, ABŞ və Avropa İttifaqı Ermənistana maliyyə və hərbi-texniki yardımı nəzərdə tutan gizli anlaşma ilə kollektiv Qərb Azərbaycana qarşı “vahid cəbhə”dən çıxış edə biləcəyi mesajını vermiş oldu. Artıq bütün kartlar masanın üstünə düzüləndən, ermənipərəst Fransanın ssenari müəllifi olduğu yeni “layihənin” konturları aydın şəkildə görünəndən sonra rəsmi Bakı özünün qəti sözünü deməli idi və dedi: Sülh danışıqlarının Fransanın iştirakı ilə keçiriləcək istənilən platformasından imtina edirik! Azərbaycan iqtidarından qətiyyətli siyasi iradəyə söykənən bu qərarı gözləməyən Vaşinqton dərhal “telefon diplomatiyası”nı işə saldı. Ardınca ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın Bakıya “barışıq” səfəri təşkil edildi. Alt qatında Ermənistana güzəştlərə getmək məqsədinin gizləndiyi bu təmaslarda Bakı özünün siyasi iradəsi ilə yanaşı, Qafqaz xarakterini də göstərmiş oldu. Və sonda Ağ ev rəsmiləri anladılar ki, vasitəçisiz, ikitərəfli sülh prosesinin qarşısını heç nə ilə, hətta cəlbedici Qərb “şlaqbaumları” da kəsə bilməyəcək.



## Almatı formatı gündəmdən çıxmayıb

Kollektiv Qərbin Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanması istiqamətində göstərdiyi çeşidli “təşəbbüslərə” qısa nəzər saldıqdan sonra qeyd etməliyik ki, Bakının irəli sürdüyü “Qafqaz evi” ideyası gündəmə gətirildi. Burada, sadəcə, Tiflis platformasını Almatı formatı ilə əvəzləmək zərurəti yarandı. İlk baxışda, ikitərəfli danışıqların məkanı kimi Almatı Moskva üçün də məqbul variant sayılırdı. Fəqət NATO-nun yubiley Sammitinə dəvətdən yararlanan Vaşinqton Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü təşkil etsə də, bundan bir nəticə hasil olmadı. Yenə sülhə dəstək vermək, bölgədə əmin-amanlığa nail olmaq barədə ümumi və şablon açıqlamalar... Vəssalam!

Əlbəttə ki, Moskva Qərbin bu jestinə cavab verməli idi. “Rusiya Azərbaycan və Ermənistan nümayəndələri arasında danışıqlarda öz platformasını təqdim etməyə və onlar üçün ən rahat şəraiti yaratmağa hazırdır”. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqində Azərbaycan Prezidenti İlham Əliyevin II Şuşa Qlobal Media Forumunun açılışında Ermənistanla sülh müqaviləsi ilə bağlı fikirlərinə münasibət bildirərkən deyib. Xatırladaq ki, İlham Əliyev həmin forumda sülh sazişinin mətni üzərində danışıqların davam etdiyini, amma indi bununla bağlı daha az nikbin olduğunu vurğulamış və diqqəti Ermənistan baş naziri Nikol Paşinyanın Britaniyada görüşməkdən imtina etməsinə yönəltmişdi.

## Moskva formatı ideal olmasa da…

Son olaylara Ermənistan daxilində fərqli yanaşmalar var. Bəzi müstəqil siyasi ekspertlər danışıqların Bakının irəli sürdüyü şərtlər çərçivəsində aparılmasının qaçılmaz olması ilə razılaşırlar. “Görünür, Trampın qələbəsi artıq təmin olunub və bu, Rusiya rəhbərliyinə nəfəs almaq və postsovet məkanında baş verən siyasi proseslərə, xüsusən də, Cənubi Qafqaz reallıqlarına yenidən baxmaq imkanı verir”. Bu sözləri erməni politoloq Qagik Keryan yerli mediaya müsahibəsində deyib. Donald Trampın hakimiyyətə qayıdışı ilə Ukrayna müharibəsini tez bitirəcəyini deyən erməni politoloq bu məqamda Moskvanın Ermənistan və Azərbaycanı Rusiya platformasında danışıqlara dəvət etməsinin təsadüf olmadığına diqqəti çəkir: “Faktiki olaraq, Kreml yenidən sülh danışıqları prosesini öz nəzarətinə götürməyə çalışır. Ermənistan bu təklifə hələlik cavab verməsə də, sonda İrəvan da bununla razılaşmalıdır. Çünki Ukrayna müharibəsi başa çatdıqdan sonra Rusiya regiona qayıtmağa və öz təsirini bərpa etməyə çalışacaq, Azərbaycan onunla əməkdaşlıq edəcək, Gürcüstan da müəyyən dərəcədə Qərbin təsir zonasını tərk edəcək. Bu vəziyyətdə Ermənistan pis duruma düşəcək. Qərbin kağız üzərindəki çağırışlarına, dəstəyinə, qətnamələrinə, maliyyə yardımına ümid etməyin mənası yoxdur”.

Aydındır ki, hazırda Qərb Ermənistanın Rusiyanın təsir zonasına qayıtmasının qarşısını almaq üçün əlindən gələn hər şeyi edir. Bu nöqteyi-nəzərdən yanaşanda sülh danışıqlarının Almatı formatının həmin Qərbin də maraqları ilə üst-üstə düşən tərəfləri yox deyil. Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın açıqlamasına qayıdaraq onu da qeyd edək ki, Moskva platformasının da hər iki tərəfin maraqlarının kəsişmə nöqtəsinə düşən məqamları var. Burada, ilk növbədə, iqtisadi mənafeyin qorunub saxlanması məsələsi var. Ermənistan istəsə də bu amili nəzərdən qaçıra bilməz.

Son günlər Ermənistan mediasında müzakirə predmetinə çevrilən maraqlı mövzulardan biri də Rusiya və Qərb arasında separat danışıqların getməsi ətrafındadır. Hay blogerlərdən biri yazır: “Belə bir fikir var ki, Qərblə Rusiya arasında Cənubi Qafqazda “bölücü xətlər”in çəkilməsi ilə bağlı razılaşma var. Ehtimal olunur ki, Ermənistan Qərbin təsir zonasına düşüb, amma Putinin strateji planının nədən ibarət olduğunu bildiyimizə görə, təbii ki, buna inanmaq çox çətindir”.

## İrəvan seçim qarşısında

Bəli, Azərbaycanın qalib tərəf kimi şərtlərini irəli sürmək ixtiyarı var. Tarix özü bunun əyani sübutlarını ortaya qoyub. Misal üçün, Birinci dünya müharibəsində məhz qaliblərin şərtlərinin yerinə yetirilməsi ilə üç imperiya dağıldı. İkinci dünya müharibəsindən sonra faşizm üzərində qələbə çalan ölkələr Almaniyanı dörd işğal zonasına parçaladılar. ABŞ-yə məğlub olan Yaponiya isə Vaşinqtonun təkidi ilə özünün konstitusiyasını dəyişməyə məcbur oldu. Azərbaycanın Ermənistandan tələbi bu tarixi faktlarla müqayisədə zəif görünə bilər. Sadəcə, qalib Azərbaycanın məğlub Ermənistana qarşı mülayim şərtləri həm mövcud reallığa, həm də beynəlxalq hüquqa tam uyğundur.

Son vaxtlar müxtəlif ölkələrin, yaxud güc mərkəzlərinin təsiri altında Ermənistanın Azərbaycana qarşı təxribat xarakterli hərəkətləri müşahidə olunmaqdadır. İrəvanın bu cür avantüralara rəvac verməsi yeni hərbi toqquşmaya gətirib çıxara bilər. Gizli deyil ki, Ermənistana “daydayılıq” edən “böyük güclər”in istəyi də budur. Amma Ermənistanı intensiv silahlandıran həmin ermənipərəst mərkəzlər bunun fəsadları barədə də düşünməlidirlər. Onların Hayastanın Rusiyanın hərbi texnikasından asılı olmaması barədə mülahizələri isə iz azdırmaqdan başqa heç nə deyil.

Əsas məsələ. Bakı, İrəvandan fərqli olaraq, sülh danışıqlarının nə zaman və harada keçirilməsi barədə qərarını özü qəbul edir. Ermənistan iqtidarı isə bu məsələni Cənubi Qafqazda altniyyətli və təxribatçı məqsədlər güdən, bölgədə idarə olunan xaosun yaranmasına çalışan xaricdəki havadarları ilə məsləhətləşməyə, məhz onların iradəsi ilə hərəkət etməyə məhkumdur. Yazımızın əvvəlindəki sual hələ də aktuallığını saxlayır: Bakı sülhə səs verir! Bəs İrəvan? İndi Paşinyan iqtidarı bu suala birmənalı cavab verməli və seçim etməlidir.

**İmran BƏDİRXANLI**
**XQ**

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik**

**– Azərbaycan sülh danışıqlarında Fransadan başqa istənilən ölkənin moderatorluğunu qəbul etməyə hazırdır. Yetər ki, bu prosesdə irəliləyişə nail olunsun. Təəssüf ki, Ermənistan baş naziri Nikol Paşinyan Londonda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən son anda imtina etdi. Bu imtinanın səbəbi kimi Böyük Britaniyanın Azərbaycanın müttəfiqi olması göstərilsə də, bu, sadəcə, bəhanə idi. Əsas səbəb Paşinyanın İlham Əliyevin sülh paketinə əlavə etdiyi şərtləri yerinə yetirməkdən boyun qaçırmasıdır. Söhbət Ermənistan konstitusiyasından məlum iddiaların çıxarılmasından və ATƏT-in Minsk qrupundan birgə imtinadan gedir. Yəni, o, bu məsələlərin müzakirəsindən qaçmağa çalışır.**

**İndi rəqiblərindən geri qalmaq istəməyən Moskva da sülh danışıqlarında moderatorluq etmək təklifi ilə çıxış edib. Aydın məsələdir ki, Cənubi Qafqazda maraqları olan Rusiya əvvəlki kimi tərəflər arasında moderatorluğunu bərpa etmək istəyir. Azərbaycan prinsip etibarı ilə, bunun əleyhinə olmasa da, Ermənistan Kremlin təşəbbüsünü qəbul etmir. Bundan ötrü Nikol Paşinyanın Rusiyaya gedəcəyini güman etmirəm. İrəvan bununla həm də sülh danışıqlarından yayınmağa çalışır. Amma gec ya tez İrəvan Azərbaycanın dediyimiz iki tələbini yerinə yetirməyə məcbur olacaq. Çünki biz qalib tərəfik.**

**Bu gün Paşinyanın arxasında duran güclər anlamalıdırlar ki, əgər ortada sülh sazişi yoxdursa, onların bölgədə yeritdiyi militarist siyasəti Ermənistanın özünə qarşı çevrilə bilər. Hayastan baş naziri etiraf etmişdi ki, orduya tam nəzarət edə bilmir və yeni silahlar ordudakı həmin “beşinci kolon”un əlinə keçə bilər. Bu ilin fevral ayında şərti sərhəddə baş vermis silahlı insident təhlükənin reallığından xəbər verir. Bu təhlükəni Rusiyadan savayı, Avropa İttifaqı, ABŞ də görməlidir.**

**Sülh danışıqlarının Moskva formatına gəldikdə isə Azərbaycan bu təşəbbüsə öz mövqeyini bildirib. İndi Kreml İrəvanla dil tapmalıdır. Əgər İrəvan buna razılıq verməsə, deməli, görüş baş tutmayacaq.**

# Baqrat “payız turnesi”nə hazırlaşır

**Aprelin 19-da Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası üzrə dövlət komissiyasının iclasında Qazax rayonunun 4 kəndinin (Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı) qaytarılmasına dair razılıq əldə edildikdən sonra buna qarşı çıxan, “Vətən naminə Tavuş” adlı qondarma hərəkat yaradan, İrəvana doğru yürüş edən, burada qarışıqlıq salmağa çalışan keşiş Baqrat Qalstanyan yenidən siyasi dövriyyəyə qayıtmağa çalışır. O, hərəkatın sentyabr ayında geniş toplantı keçirəcəyini bildirib.**



Etiraz hərəkatının başçısı Geqarkunik vilayətinin Noratus kəndinə səfəri zamanı deyib: “Bizim taktikamız dəyişib: Sentyabr ayınadək tərəfdarlar cəlb edəcəyik, sentyabrın əvvəlində isə geniş toplantı keçirəcəyik”. Onun sözlərinə görə, mübarizə yalnız özü və onun bütün iştirakçıları öləndə bitəcək. Arxiyepiskopun tərəfdarlarına məxsus “Müqəddəs mübarizə” teleqram kanalında bildirilib ki, etiraz hərəkatının sıralarının genişləndirilməsi prosesi payıza qədər davam edəcək.

“Hraparak” qəzeti yazır ki, arxiyepiskopun rəhbərlik etdiyi hərəkat aktiv struktur dəyişiklikləri və yenidən təşkilolunma həyata keçirir. O cümlədən, bütün istiqamətlər üzrə proseslərə nəzarət edəcək müxtəlif strukturların və şuraların formalaşdırılması məsələsi müzakirə olunur. Qeyd edilir ki, artıq Ermənistan parlamentinin keçmiş deputatı Karen Bekaryanın rəhbərliyi ilə koordinasiya şurası yaradılıb. Şura yaxın vaxtlarda yeni məsul şəxsləri seçəcək. Onlar hərəkatın “katibləri”nin və gənclərin işini koordinasiya edəcəklər. B.Qalstanyan isə siyasi şura – hərəkatı dəstəkləyən siyasi qüvvələrin nümayəndələrinin daxil olacağı məsləhətçi orqan yaratmağı planlaşdırır.

“Joxovurd” qəzeti isə öz mənbələrinə istinadən qeyd edib ki, arxiyepiskop hakimiyyətin müxalifətin təzyiqi altında vaxtından əvvəl seçkilərə getməsi üçün mümkün olan hər şeyi etməyə hazır olduğunu bildirib. Nəşrin yazdığına görə, Qalstanyan siyasi qüvvələrlə görüşdə 2026-cı ildə keçiriləcək parlament seçkilərini gözləməyəcəyini deyib: “Baqrat istər yaxın çevrəsi arasında, istərsə də siyasi qüvvələrlə görüşlərində 2026-cı ildə baş tutacaq növbəti seçkiləri gözləməyəcəyini söyləyib. Vəziyyət hər gün daha da mürəkkəbləşir, hakimiyyət yeni əraziləri təslim etməkdən (?) çəkinmir və ölkənin sərhədləri getdikcə içərilərə doğru çəkilir. Ona görə də növbəti seçkiləri gözləmək Ermənistan üçün fəlakətli ola bilər”.

Qəzet Ermənistanda Nikol Paşinyanın istefası tələbi ilə etiraz aksiyalarının bərpa olunacağı tarixi də açıqlayıb. Hərəkat sentyabrın 2-dən baş nazirin istefası tələbi ilə etiraz aksiyalarının bərpa olunacağını qeyd edib. Arxiyepiskop bugünlərdə müxtəlif siyasi qüvvələrin və digər sahələrin nümayəndələri ilə hərəkatın formatı və məqsədlərini müzakirə etmək üçün fəal şəkildə görüşlər keçirir, müzakirələr aparır.

Erməni apostol kilsəsi isə hərəkatın liderinin ruhani xidmətini müvəqqəti olaraq dayandırmasına baxmayaraq, Tavuş yeparxiyasına yeni rəhbər təyin etməyə tələsmir. “Panorama.am” saytı kilsənin iqamətgahının mətbuat xidmətinin rəhbəri Yesai Artenyanla əlaqə saxlayıb. O bildirib ki, Tavuş yeparxiyası hazırda bütün ermənilərin katolikosu II Qareginin rəhbərliyi ilə yaradılmış koordinasiya şurası tərəfindən idarə olunur.

Polittexnoloq və siyasi analitik Vigen Akopyan sayta açıqlamasında bildirib ki, “Vətən naminə Tavuş” hərəkatının kütləvi və bəlkə də daha radikal mərhələsi sentyabr ayının ortalarında başlayacaq. Onun sözlərinə görə, müxalifət hərəkatı hazırda yeni strukturların yaradılması üçün kifayət qədər intensiv tapşırıqlar yerinə yetirir.

Ancaq Ermənistanda B.Qalstanyanın yazda olduğu kimi payızda da uğursuzluğa düçar olacağına inananların sayı çoxluq təşkil edir. Onlar başa düşürlər ki, bu hərəkat ölkəni fəlakətə sürükləyir. Eyni zamanda, ölkəni uzun illər istismar etmiş Qarabağ klanının, keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarkisyanın aksiyalara dəstək verməsi əhalidə Baqrata inamı azaldan başlıca səbəbdir. Əgər aksiyaçılar uğurlu olsalar, o zaman keşiş müvəqqəti hökumətin başçısı olacaq. Sonra isə seçkilər keçirilməlidir. Seçkilərdə Qarabağ klanının yenidən hakimiyyəti qəsb edəcəyi ehtimalı böyükdür. Bundan ehtiyat edən haylar Baqrata birmənalı şəkildə “yox!” deyirlər.

Ermənistanın media resurslarında da B.Qalstanyana mənfi münasibət ifadə olunur. Ölkənin ciddi saytlarından olan “Armenian Report”da dərc olunan “Bir marionetin şərəfsiz sonu” sərlövhəli məqalədə bildirilir ki, yay fəsli digər ölkələrdə olduğu kimi, Ermənistanda da məzuniyyət üçün ənənəvi vaxtdır: “Görünür, “Vətən naminə Tavuş” hərəkatının vizual və formal lideri B.Qalstanyan da çox yorulub, o, dincəlmək və Tavuşdan İrəvanadək piyada yol gəlməsi nəticəsində əzilən dabanlarını “sağaltmaq” qərarına gəlib. Ən azı son günlər onun adı yerli mətbuatda əvvəlkitək tez-tez çəkilmir. Qəzet səhifələrindən isə tamamilə yoxa çıxıb. Yaxud da, bəlkə hər şey daha sadədir və arxiyepiskop Paşinyan hökumətini devirmək uğrunda mübarizəni dayandırmaq qərarına gəlib? Qalstanyana rəğbət bəsləyən media orqanları bildirirlər ki, hərəkat daxilində yenidən təşkilolunma gedir, müvəqqəti hökumətin proqramları və ölkənin inkişafı ilə bağlı baxışlar hazırlanır və narahatlıqdan bezmiş ruhani özü də payızda “küçəni aktivləşdirmək” niyyətindədir. Əlbəttə, əgər buna qədər hansısa fors-major vəziyyət yaranmayacaqsa. Halbuki bütün bunlar boş söhbətdir. Nə Qalstanyanın özü, nə də onun arxasında duran qüvvələr hərəkatın faktiki olaraq məhv olduğunu açıq şəkildə etiraf etməyə cəsarət etmir və onun yaxın gələcəkdə yeni güclə bərpa olunması üçün heç bir ilkin şərt yoxdur. Vəssalam, Qalstanyanın və onun Qarabağ klanından olan kuratorlarının mahnısı bitdi. Və bunun bir sıra səbəbləri var, onlardan bəzilərini nəzərdən keçirməyə çalışacağıq”.

(ardı 4-cü səhifədə)

# Bahar Muradova Samuxda vətəndaş müraciətlərini dinləyib



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Samuxda vətəndaşları qəbul edib. Komitədən XQ-yə verilən xəbərə görə qəbul zamanı Gəncə şəhər, Samux və Kəlbəcər rayon sakinlərinin müraciətləri dinlənilib.**

Qəbuldan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin də iştirakı ilə keçirilən görüşdə vətəndaş müraciətləri sırasında ailədaxili münasibətlər, uşaqlarla ünsiyyət, işlə təmin olunma, boşanmadan sonra yaranan hüquqi problemlərin həlli, uşaq hüquqları və digər məsələlər yer alıb.

Qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Həlli araşdırma tələb edən müraciətlər qeydə alınaraq, icraata götürülüb.

**Zərifə HÜSEYNOVA**
**XQ**

# "Məişət zorakılığının qarşısının alınmasında medianın rolu"




**Dünən Mətbuat Şurasında"Məişət zorakılığının qarşısının alınmasında medianın rolu" mövzusunda konfrans keçirilib. Tədbirlər media, QHT təmsilçiləri, ekspertlər və sosial media fəalları iştirak ediblər.**

Azərbaycan Jurnalistlərinin Həmrəylik Komitəsi İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə keçirilmiş tədbirdə məişət zorakılığı ilə bağlı mühüm məsələlərə toxunulub.

Layihənin koordinatoru Mədət Məmmədov bildirib ki, təəssüf ki, bəzən məişət zorakılığına məruz qalmış şəxslərin hekayələri sensassiya yaratmaq, auditoriya cəlb etmək naminə kontekstdən çıxarılır, yanlış şərhlər verilir. Bəzi informasiyalarda isə zorakılığa haqq qazandırılır. Bu isə məişət zorakılığının getdikcə artmasını stimullaşdırır. Məişət zorakılığı ilə mübarizədə KİV-in fəaliyyətinin düzgün istiqamətə yönləndirilməsi üçün media işçilərinin özlərinin təlimatlandırılması zəruridir.

Tədbirdə "Ruh" Jurnalistləri Müdafiə Komitəsinin sədri Əvəz Rüstəmov, jurnalist Nəsimi Nizamioğlu, Mətbuat Şurasının komissiya üzvü, Əməkdar jurnalist Əminə Yusifqızı, "Xalq qəzeti"nin əməkdaşı Rizvan Fikrətoğlu və digər şəxslər çıxış edərək, mövzunun aktuallığından bəhs ediblər.

**XQ**

# Baqrat "payız turnesi"nə hazırlaşır



**(əvvəli 3-cü səhifədə)**

Birincisi, qeyd etmək lazımdır ki, istənilən etiraz hərəkatı yalnız ildırım sürəti ilə, blitskriq rejimində hərəkət etdikdə uğur qazanmaq şansına malikdir: "Nikol Paşinyanın 2018-ci ilin yazında hakimiyyətə necə gəldiyini xatırlayaq. O, martın 31-də Gümrüdən İrəvana yürüş etdi, aprelin 23-də isə Sarkisyan istefa verdi. Cəmi üç həftə və hakimiyyət sanki boğularaq ondan yapışan Sarkisyanın üzərinə düşdü. Qalstanyan isə bir neçə ay bütün Ermənistanı gəzib-dolaşdı, hətta paytaxtda mitinqlər keçirdi, lakin Paşinyan hökuməti haqqında zərrə qədər də mənfi təəssürat yarada bilmədi. Deyə bilərik ki, o, hərəkatda boşboğazlıq edirdi, tempi itirdi və Paşinyanı devirmək üçün kiçik də olsa, şansını əldən verdi".

Məqalədə daha sonra deyilir: "İkinci məqam isə xalqın inamı və dəstəyidir ki, bunsuz heç bir hakimiyyət dəyişikliyi mümkün deyil. Yenə 2018-ci ildə etiraz hərəkatı cəmiyyətimizin böyük bir hissəsi tərəfindən dəstəkləndi. Hətta, həqiqi hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları da Paşinyanın tərəfinə keçdilər. Biz hamımız Sarkisyan hakimiyyətinə dərindən nifrət edirdik. Bəli, sonradan cəmiyyətin bir hissəsində məyusluq yarandı, amma yenə də etiraf etmək lazımdır ki, bu gün də indiki baş nazir xalqda Koçaryan, Sarkisyan və Qalstanyandan daha çox rəğbət doğurur. Bəli, Qalstanyanın İrəvandakı ilk mitinqinə kifayət qədər çox adam gəldi və arxiyepiskop daha cəsarətli olsaydı, belə xalq dəstəyi ilə Paşinyanı devirməyə cəhd edə bilərdi. Lakin qiyamçı keşiş ürəksiz oldu, hökumətə gülünc ultimatumlar verməyə başladı və o, nəticədə nəinki lağa qoyuldu, hətta kütlə arasında dəstəyini də itirdi".

Üçüncüsü, Qalstanyanın Koçaryanla həddindən artıq yaxın əlaqələri hərəkata baha başa gəldi: "Ermənistanda Koçaryanın hakimiyyət dövrləri hələ də unudulmayıb və ağlı başında olan heç kəs onun hakimiyyətinin bərpasını istəmir. Və heç kim şübhə etmirdi ki, hərəkat uğur qazansa, ölkənin başçısı o olacaq. Arxiyepiskopun daha hiyləgər və qəddar Koçaryanın və Sarkisyanın əlində sadəcə bir marionet olduğu hamıya aydın idi.

Deyə bilərik ki, biz hazırda mahiyyətcə Qarabağ klanının marionetkasına çevrilən arxiyepiskop Qalstanyanın şərəfsiz sonunun şahidi oluruq. Tavuşun qorunması və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı uca şüarlarla başlayan hərəkat heç vaxt lokal ictimai etirazdan daha geniş ictimai-siyasi prosesə çevrilə, kütləvilik qazana və qarşıya qoyulan vəzifəni yerinə yetirə bilmədi. Buna görə də, payızda yenidən "küçəni aktivləşdirmək" üçün hərəkat daxilində, guya, yenidən təşkilatlanmanın getdiyi barədə bütün söhbətlər, sadəcə olaraq, Qalstanyan və Koçaryanın məğlubiyyətini ört-basdır etməyə hesablanmış söhbətlərdir".

Ermənistan mediasından geniş iqtibas gətirdiyimiz bu məqalədə qeyd edildiyi kimi, "Vətən naminə Tavuş" hərəkatının yenidən dirçələcəyi, kütləvi aksiyalar keçirəcəyi və hansısa nəticəyə nail olacağı xam xəyaldır. Əslində, onun hakimiyyətə yiyələnmə şansı lap əvvəldən az ehtimal edilirdi. Arxiyepiskop və onun kuratorları hakimiyyətə gələcəkləri təqdirdə nə daxili, nə də xarici siyasətdə həyata keçirəcəkləri fəaliyyət proqramını təqdim etməmişdilər. Onlar yalnız öz tərəfdarlarını polisin dəyənəyi altına ataraq, asayiş keşikçiləri ilə qarşıdurmaya gedərək mübarizə üsullarını radikallaşdırmağa çalışırdılar. Onların cəmiyyətin bütün təbəqələrinə uyğun olacaq aydın siyasi gündəmləri yox idi. Etirazların pik nöqtəsində hərəkata yeni qüvvələr qoşulmağa başlasalar da, onların hamısı, birincisi, marginal elementləri təmsil edirdilər, ikincisi, cəmiyyətin gözündə nüfuzlarını çoxdan itirmişdilər. İlin hansı fəslinin olmasından asılı olmayaraq, belə qüvvələrin heç bir uğur qazanmaq şansı yoxdur.

**Səxavət HƏMİD**
**XQ**

## Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq**

– Ermənistanda radikal müxalifətin hakimiyyəti yenidən ələ keçirmək imkanı sıfıra bərabərdir. Onlar uzun illər ərzində iqtidarda olublar. Həmin illər erməni xalqına böyük fəlakətlər gətirib, onu məhrumiyyətlərə düçar edib. Düzdür, müstəqilliyin ilk illərində onlar Azərbaycan torpaqlarını işğal etmələri səbəbindən eyforiyada idilər. Bütün dünya ermənilləri bunu bayram edirdilər. Ancaq sonradan işğal səbəbindən Ermənistanın həm Azərbaycanla, həm də Türkiyə ilə sərhədlərinin bağlı olmasının acı nəticlərini sadə erməni xalqı öz üzərində hiss etməyə başladı.

44 günlük Vətən müharibəsindən sonra isə onlar tamamilə ümidsizlik içindədirlər. Buna baxmayaraq, xalqın böyük əksəriyyəti yeni müharibənin daha böyük fəlakət vəd etdiyini başa düşür. Buna görə də onlar hazırkı baş nazir Paşinyanı dəstəkləyirlər. Zənnimcə, bu dəstək qarşıdakı illərdə də davam edəcək.

# Sülh gündəminə zidd manipulyasiya

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan MN İrəvanı və havadarlarını Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq niyyətlərindən çəkinməyə çağırır. Elə xəbərdarlığını da məhz mövcud xüsusda çatdırır: "Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcəkdir".

*

Bəs Azərbaycan MN-nin xəbərdarlığı Ermənistanda necə qarşılanır? Əlbəttə, ölkədə normal siyasi başlar həyəcan təbili çalır, danışıqlar gündəminə sadiqliklə bağlı mesajlar səsləndirirlər. Amma belələrinin sayı çox az olduğundan, səsləri eşidilmir. Əvəzində revanşist və şovinist dairələr ölkəmizin baş hərbi idarəsinin bəyanatında bildirilənləri rəsmi İrəvana münasibətdə demarş kimi qiymətləndirir və baş nazir Nikol Paşinyan administrasiyasını Bakının qarşısında aciz qismində göstərirlər. Belələrinin niyyəti iqtidarı aşağılayıb siyasi dividend qazanmaqdır. Nikol və tərəfdarları isə sanki bu ritorikaya cəbhə açan qiyafəsinə bürünüb ən pis erməni olmaq yarışında birinciliyə layiq davrandıqlarını təsdiqləyirlər. Ona görə də azğın bəyanatlar səsləndirirlər ki, bunların özü də regionun sülh gündəminə zərbədir.

*

Ermənistan müdafiə nazirliyindən Azərbaycan MN-ə verilmiş cavab da azğınlıqdan başqa bir şey deyil. Cavabda nələr vurğulanır, bu barədə söz açacağıq. Hələlik, kiçik bir qeydi diqqətə çatdıraq. Yadınızdadırsa, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan MN-nin Şuşan Stepanyan adlı mətbuat katibi var idi. Bu xanımın işi "rəşadətli erməni hərbi birləşmələrinin cəbhədəki uğurları" barədə dezinformasiyalar yaymaq, hər cür hədyanlar yağdırmaq idi. İndi Şuşanın yerini Ani Badalyan adlı başqa bir xanım tutub və o, ölkəmizin ali hərbi idarəsinin yaydığı bəyanatı şərh edərkən deyib ki, Azərbaycan MN-nin Ermənistan ordusunun Ermənistan–Azərbaycan dövlət sərhədində təxribat xarakterli hərəkətləri ilə bağlı növbəti bəyanatı anlaşılmazdır.

Əslində, A.Badalyanın söylədikləri Ermənistan baş nazirinin aparatının bir neçə gün əvvəl yaydığı açıqlamanın təkrarı kimi də qiymətləndirilə bilər. Məsələn, onun sözlərinə görə, sərhəd insidentlərinin və ya onlar haqqında məlumatların araşdırılması vacibdir. Bu məqsədlə Paşinyanın ofisi Ermənistan–Azərbaycan birgə mexanizminin yaradılması ilə bağlı təklif irəli sürüb. Həmin təklif Bakıya istər diplomatik kanallar, istərsə də açıq şəkildə çatdırılıb. Ancaq, guya, məsələ cavabsız qalıb. A.Badalyanın fikrincə, belə bir mexanizmin işə salınması istənilən vəziyyətə aydınlıq gətirməyə və reallığa uyğun gəlməyən fikirlərin yayılmasının qarşısını almağa imkan verərdi.

Yeri gəlmişkən, A.Badalyan tərəfindən səsləndirilmiş fikri vaxtilə Azərbaycan rəhbərliyi irəli sürmüşdü. O zaman Ermənistan silahlı qüvvələrinin açdığı atəş ölkəmizin Sərhəd Xidmətinin hərbçisinin yaralanmasına səbəb olmuşdu. Məsələ ilə bağlı video kadrlar da yayılmışdı. Həmin kadrlarda atəşin haradan açıldığı açıq-aşkar görünürdü. Bəs rəsmi İrəvan bununla bağlı hansı tədbiri gördü? Heç nə etmədi! Bildirdi ki, guya, atəş açan hərbçi yox, hansısa könüllü birləşmənin təmsilçisidir. Sözügedən şəxs məsuliyyətə cəlb olunmadı. Çünki ortaya atılan fikir cəfəng idi. Axı hansısa könüllü birləşmənin üzvü ön xətdə peyda ola bilməzdi. Tutalım, həmin şəxs döyüş mövqeyinə gəlib çıxmağı bacarıb, bəs silahı haradan tapıb?

Başqa suallar da var. Məsələn, necə olur ki, Azərbaycanın mövqelərinin atəşə tutulması ilə Fransadan gəlmiş və içi hərbi yardımla dolu təyyarənin İrəvana enməsi üst-üstə düşür? Üstəlik, nəzərə alaq ki, Ermənistanın son dəfə Kəlbəcər istiqamətində Azərbaycanın mövqelərini Qərbin verdiyi yeni silahlardan atəşə tutduğuna dair bilgilər var. Bununla əlaqədar məlumatı bir müddət əvvəl "Minval.az" saytı mötəbər mənbələrdən əldə etmişdi. Məlumatda o da bildirilmişdi ki, Ermənistan son bir ildə atəşkəsi pozarkən, ilk dəfə olaraq, ağır silahlardan yararlanıb. Bu, ABŞ, Fransa və Avropa İttifaqını təmsil edən hərbi müşavirlərin iştirakı ilə həyata keçirilib. Şübhə yoxdur ki, onlar ölkələri tərəfindən verilmiş öldürücü silahları döyüş şəraitində sınaqdan keçirmək qərarına gəlmiş, habelə ordu birləşmələrimizin atəşə necə reaksiya verəcəyini öyrənmək istəmişdilər.

Bundan başqa, ABŞ və Fransanın Ermənistan silahlı qüvvələrinə peşkəş etdiyi snayper tüfənglərinin Azərbaycan hərbçilərinə qarşı real döyüş şəraitində istifadəsi barədə məlumatlar var. Bildirilir ki, atəş mövqeyinin seçilməsi, atəş açdıqdan sonra geri çəkilmək, yalançı atəş nöqtələri quraşdırmaq, atəşdən dərhal sonra rabitə və digər vasitələrdən istifadə edərək kəşfiyyat aparmaq və bir çox digər tapşırıqlar NATO ölkələrinin hərbi standartlarına uyğun formada həyata keçirilib.

Bütün bunlardan sonra A.Badalyan vay-şivən qoparır ki, Ermənistanı eskalator ritorikaya sürükləmək cəhdləri qəbuledilməzdir, ölkənin hökuməti, guya, sülh gündəminə sadiq qalmaqdadır və bu strategiyadan kənara çıxmayacaq. Əlbəttə, Badalyana rəsmi İrəvanın 44 günlük müharibədən sonra həmişə sülh gündəminə üz çevirdiyini xatırlatmağa ehtiyac yoxdur. Çünki həm o, həm də təmsil olunduğu komandada yer alan şəxslər yalan danışmaq üzrə ixtisaslaşıblar.

Beləliklə, A.Badalyan da Ermənistan silahlı qüvvələrində aparılan islahat cəfəngiyyatı, silah və texnikanın əldə edilməsi barədə sərsəmləyərək bildirir, daha doğrusu təkrarlayır ki, döyüşə hazır ordunun olması hər bir ölkənin suveren hüququdur və guya, Ermənistan müdafiə və təhlükəsizlikdən, beynəlxalq səviyyədə tanınmış ərazisinin müdafiəsindən başqa heç bir məqsəd güdmür, beynəlxalq hüquq normaları çərçivəsində hərəkətə üstünlük verir. Elə isə yenə meydana suallar çıxır: Görəsən, sülh gündəminin aktual olduğu indiki dövrdə ordu islahatlarına, xaricdən silah-sursat idxalına nə dərəcədə ehtiyac var idi? Məgər rəsmi İrəvan anlamır ki, belə hərəkətlər onun səmimiliyinə şübhə yaradacaq? Nəzərə alaq ki, erməni ordusunda silahlanma danışıqlar prosesində açıq qalan məsələlərin yoluna qoyulmadığı bir şəraitdə gerçəkləşir. İstər-istəməz düşüncə formalaşır ki, Ermənistan həmin məsələlərin həllində gücə üstünlük vermək haqqında düşünür, bu yolla Azərbaycanın kompromislərə gedəcəyinə ümid bəsləyir.

A.Badalyan xatırladır ki, Ermənistan diplomatik kanallar vasitəsilə və açıq şəkildə Azərbaycana silahlara qarşılıqlı nəzarət mexanizmi yaratmağı və müvafiq saziş bağlamağı təklif edib, Azərbaycan isə təklifi cavabsız qoyub, ancaq buna baxmayaraq, məsələ qüvvəsində qalır. Əvvəla, bəli, doğrudan da, rəsmi İrəvan tərəfindən ötən il sözügedən təklif səslənmişdi. Onun müəllifi baş nazir N.Paşinyanın özü olmuşdu. İkincisi, ölkəmiz heç nəyi cavabsız qoymadığı kimi, Nikolun dediyini də eyni tərzdə qarşılamışdı. Azərbaycan məsələnin strukturu ilə razılaşmamışdı. Çünki sülh müqaviləsi imzalanmadan haqqında söz açılan detallı məsələnin gündəmə gətirilməsi yersizdir və manipulyativ xarakter daşıyır.

Aydındır ki, Paşinyan silahlanma məsələsində müqaviləli beynəlxalq mexanizm təminatı təklifini irəli sürməklə, Bakının İrəvanın mümkün təxribatlarına münasibətdə layiqli cavab vermə potensialını məhdudlaşdırmağı düşünür, ikili standarlar siyasətinə sərmayə qoyur. Yəni, erməni baş nazir yaxşı bilir ki, silahlanmaya nəzarət mexanizmi yaransa, Qərbdəki havadarlarının köməyi ilə ölkəsini bu mexanizmin təsirindən qoruyacaq, əvvəlkitək silahlanacaq, əvəzində Bakıya münasibətdə təzyiq elementləri aktullığını saxlayacaq, daha dəqiq desək, ölkəmizin öz müdafiə qabiliyyətini artırmaq səylərinə sədd çəkiləcək. Bir daha deyək ki, Paşinyanın qondardığı məsələ siyasi spekulyasiyadan və gündəmə təzə mövzu vermək cəhdindən başqa bir şey deyildi. Ona görə də onun irəli sürdüyü təklif reallaşmadı və reallaşa da bilməzdi.

Belə nəticəyə gəlirik ki, A.Badalyanın Azərbaycan MN-nin bəyanatının şərhi üçün dilə gətirdiyi digər fikirlər kimi, silahlanmaya nəzarətə dair dedikləri də cəfəng məntiqə əsaslanır. O qənaət də hasil olur ki, rəsmi İrəvan atəşin pozulmasına görə məsuliyyəti boynundan atmaqda, mövcud xüsusda yeni reallıqlar uydurmaqda israrlıdır. Deməli, qarşıdakı müddətdə Ermənistan silahlı birləşmələrinin yenidən atəşkəs rejimini pozacağını proqnozlaşdırmaq mümkündür. Bunun Bakı–İrəvan sülh prosesinə zərər gətirdiyini vurğuladıq. Daha hansı fəsadlar ola bilər, bu barədə də çox danışılıb. Vurğulanıb ki, Ermənistanın müharibə hazırlığı Qərbin geosiyasi sifarişidir. Belə bir sifarişin isə Hayastanı böyük fəlakətlərə, hətta dövlətçiliyin itirilməsinə sürüklədiyi tam aydındır. Yaxşı olar ki, rəsmi İrəvan A.Badalyan kimilərini qabağa verib bəsit gedişlərə baş vurmaqdansa, məsələ barədə düşünsün. Düşünsün və nə qədər ki, gec deyil, nəticə çıxarıb tutduğu destruktiv yoldan geri dönərək, sülh gündəminə qayıtsın.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Qaliblər mükafatlandırılıb





**İyulun 26-da ADA Universitetində dördüncü "Yüksəliş" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Tədbirdə müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, ADA Universitetinin rektoru Hafiz Paşayev, mədəniyyət naziri Adil Kərimli, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, "Yüksəliş" müsabiqəsinin İşçi Qrupunun rəhbəri, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev iştirak ediblər.

Qonaqlar çıxışlarında müsabiqə çərçivəsində qazanılan təcrübə, bilik və əlaqələr, eləcə də birillik mentorluq proqramının qaliblərin peşəkar həyatlarına mühüm təsir göstərəcəyini söyləyiblər.

Daha sonra isə Təşkilat Komitəsinin sədri, üzvləri və mərasimin xüsusi qonaqları builki qalibləri diplomla təltif edib, xatirə şəkli çəkdiriblər.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də Sərəncam imzalanıb.

**XQ**

## Milli Məclisə seçkilərə 35 gün qaldı

# Qusar seçkilərə hazırlaşır




**"Qusar rayonu kəndlərinin əksəriyyəti dağlarda yerləşir və iqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. Əhali taxılçılıq, tərəvəzçilik, meyvəçilik və heyvandarlıqla məşğul olur. Rayonda keçirilən tədbirlərdə, el şənliklərində hamı bir yerdə olur. İndiyədək keçirilən seçkilərdə əhali mütəşəkkil iştirak edib, seçki məntəqələrinə gələrək istədikləri namizədə səs veriblər. Elə seçki məntəqələri olub ki, orada səs vermək üçün uzun növbələr olub. Əminəm ki, qarşıdan gələn növbədənkənar parlament seçkilərində də belə olacaq".**





Seçkilərə hazırlıqdan söhbət açan 61 saylı Qusar dairə seçki komissiyasının sədri Cəlil İbrahimov əlavə etdi ki, hazırda seçkilərə hazırlıq mərhələsini yaşayırıq. Deputat mandatı qazanmaq istəyənlərin namizədliklərini irəli sürmə prosesi davam edir. Hələlik 4 nəfərin namizədliyi təsdiqlənib və onlara imza vərəqələri verilib. Üç nəfəri isə öz razılığı ilə namizədliyini geri götürüb. Onlara heç bir təzyiq göstərilməyib və ya süni əngəl yaradılmayıb. Görünür, mübarizəni sona qədər aparacaqlarına əmin deyillər. Çünki namizədlikləri təsdiqlənənələr 450 etibarlı imza toplamalıdırlar. Bu, o qədər də asan məsələ deyil. Bundan sonra qarşıda daha çətin proseslər durur. Ona görə də özünə arxayın olmayanlar namizədliklərini geri götürüblər.

### Siyahılar dəqiqləşdirilir

DSK sədri bildirdi ki, qarşıda duran daha bir ciddi məsələ də seçici siyahılarının dəqiqləşdirilməsidir. Onun sözlərinə görə, indiyədək 51 min 704 nəfər seçici müəyyənləşdirilib. Lakin siyahı tez-tez dəyişə bilər. Bunların arasında qəflətən dünyasını dəyişənlər, ərazimizə qonaq və ya turist kimi gələnlər olur. Ona görə də seçici siyahısının tam dəqiqləşdirilməsi barədə qəti qərar verə bilmirik. Bu qədər seçicinin 65 seçki məntəqəsində səs verəcəyi qərara alınıb. Seçki məntəqələrində hazırlıq işləri başa çatmaq üzrədir. Bu prosesi zamanı tələb olunan bütün ləvazimatlar məntəqələrə çatdırılıb. Hazırda seçici siyahılarının müvafiq yerlərdən asılması işləri gedir.

C.İbrahimov aşağı seçki komissiya üzvlərinin maarifləndirilməsindən də söhbət açdı. O dedi ki, istər dairə, istərsə də məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirmə tədbirlərində və treninqlərdə iştirakı vacibdir.

### Maarifləndirmə tədbirləri

Sədr dedi ki, indiyədək Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində keçirilən regional seminar-müşavirələrdə bütün dairə seçki komissiyalarının sədrləri, məhkəmə hakimləri və polis orqanlarının nümayəndələri iştirak edirlər. Maarifləndirmə və məlumatlandırma xarakterli seminar-müşavirədə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə təqdimatlar keçirilir, çıxışlar dinlənilir və müzakirələr aparılır. Bütün bunlar səsvermə günü qarşıya çıxan problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

***Əliqismət BƏDƏLOV***
***XQ***



# Səfirliyimizin yeni binasının açılışı COP29-a həsr edilib

**Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin yeni inzibati binasının açılışı ilə əlaqədar iyulun 25-də təntənəli tədbir keçirilib. COP29 mövzusuna həsr olunan mərasimdə iki ölkə arasında əlaqələrin tarixinə və inkişaf perspektivlərinə də nəzər salınıb.**



Səfir Elin Süleymanov COP29-a ev sahibliyi edəcək Azərbaycanın diqqətinin tam şəkildə iqlim fəaliyyətinə yönəldiyini və ölkəmizin bütün dünya üçün həyati əhəmiyyət daşıyan iqlim məqsədlərinin irəli aparılması üçün əlindən gələni etdiyini bildirib. Diplomat bu məsuliyyətli işdə ilk gündən Azərbaycana dəstəyini əsirgəməyən Britaniya tərəfinə təşəkkürünü bildirib.

COP29-un Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bir neçə gün əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısında iştirak etmək üçün Britaniyaya işgüzar səfər etdiyini xatırladaraq, Azərbaycanın bu ölkədəki səfirliyinin yeni binasında keçirilən tədbirdə həm də ikitərəfli dostluq münasibətlərinin qeyd olunduğunu vurğulayıb. Londonun iqlim fəaliyyətində vacib mərkəz rolu oynadığını qeyd edən M.Babayev iyunun sonunda Britaniyaya səfəri zamanı keçirdiyi görüşlərdən və qatıldığı tədbirlərdən söz açıb. COP26-ya ev sahibliyi etmiş Birləşmiş Krallığın vacib tərəfdaş olduğunu deyən M.Babayev britaniyalı həmkarlarına COP29-un uğurla keçirilməsi istiqamətində göstərdikləri dəstəyə görə təşəkkür edib.

Birləşmiş Krallığın enerji təhlükəsizliyi və sıfır emissiya məsələləri üzrə dövlət katibi Ed Miliband çıxışında tədbirdə iştirak etməkdən şərəf duyduğunu bildirib. O, iqlim dəyişikliyinin qarşısının alınması və dünyanın "yaşıl" inkişafı üçün ölkələri bir araya gətirən COP tədbirlərinin əhəmiyyətini xüsusi vurğulayıb. Dövlət katibi indiyədək keçirilmiş COP görüşlərində razılaşdırılmış tədbirlərin davam etdirilməsinin, habelə COP29-da iqlim maliyyələşməsi məsələsi üzrə vacib razılığa gəlinməsinin iqlim məqsədlərinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Bu kontekstdə o, iqlim problemlərindən ən çox əziyyət çəkən ölkələrə dəstək verilməsinin önəminə diqqət çəkib. Ed Miliband vurğulayıb ki, Britaniya COP29-un uğurla keçməsi və gözlənilən nəticələrin əldə olunması üçün Azərbaycana hər cür dəstək verməyə və yaxından tərəfdaşlıq etməyə hazırdır.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin COP29-da iştirakla bağlı Britaniyanın Baş naziri Kir Starmerə ünvanladığı dəvət məktubunun orijinal nüsxəsi Ed Milibanda təqdim edilib.

"The City of London" merinin rəsmi nümayəndəsi Alderman Qreq Couns çıxışında dünyanın maliyyə və biznes mərkəzi olan "The City"nin COP29-un uğurla keçməsinə hər cür dəstək verməyə hazır olduğunu qeyd edib.

**XQ**



# Azərbaycan–Somali: ikitərəfli və çoxtərəfli əməkdaşlıq dərinləşir

**İyulun 26-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Əhməd Moallim Fiqi ilə görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Ceyhun Bayramov Azərbaycanla Somali arasında diplomatik münasibətlərin qurulmasından ötən 20 il ərzində, xüsusilə son illərdə ölkələrimiz arasında təmasların artmasının əməkdaşlıq perspektivlərinin müzakirəsində faydalı rol oynadığını diqqətə çatdırıb.

Bir sıra istiqamətlər, o cümlədən, kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, "yaşıl enerji", humanitar, təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün potensialın mövcudluğu, bu istiqamətlərdə qarşılıqlı təmasların və təcrübə mübadilələrinin aparılmasının əhəmiyyəti qeyd olunub.

Beynəlxalq və regional təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı hörmət, dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın məmnunluq doğurduğu diqqətə çatdırılıb. Somalinin 2025–2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü müddətində beynəlxalq sülh və təhlükəsizlik səylərinin tərəfimizdən dəstəklənəcəyi ifadə olunub. Bununla yanaşı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ölkəmizin təhsil təqaüd proqramlarından Somalinin faydalana biləcəyi diqqətə çatdırılıb.

Ölkəmizin cari ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində Somali ilə əməkdaşlığa hazır olduğu diqqətə çatdırılıb.

Qoşulmama Hərəkatına sədrliyimizin Afrika ölkələri ilə əlaqələrimizin gücləndirilməsinə töhfə verdiyini diqqətə çatdıran Ceyhun Bayramov əməkdaşlığın inkişafının prioritetlərimizdən birini təşkil etdiyini, bu istiqamətdə ölkəmizin Afrika İttifaqı Komissiyası ilə münasibətlərin genişləndirilməsi niyyətində olduğunu bildirib.

**XQ**

I MƏQALƏ

# Liderlik missiyası

Mən həmişə xalqıma xidmət etmişəm.

Heydər ƏLİYEV,
Ümummilli lider



## Liderlik missiyası

"Liderlik missiyası" anlayışının izahına çox rast gəlirik. Onları ümumiləşdirsək, bir neçə müddəada yığcam ifadə edə bilərik. Bu missiyanı insanın varlıq kimi təyinatının fəlsəfəsi olaraq dəyərləndirənlər vardır. Latınca "missio"dan alınmışdır. Ümumi halda mövcud olmanın və ya fəaliyyətin mənasını ifadə edir. Yəni liderin bu missiyasının mənası, mahiyyəti və məqsədini necə görməsi ilə bağlıdır. Başqa sözlə, missiya şəxsin həyat fəlsəfəsinin bugünü ilə gələcəyinin qarşılıqlı əlaqəsinin dinamikasında formalaşan fəaliyyət keyfiyyətidir. Bir sıra hallarda, görünür, bu məqamı nəzərə alaraq yazırlar ki, liderin missiyası qarşısına fövqəl vəzifələr qoymaq, mövcud reallığın sərhədini aşan üfüqlərdə özünü görə bilmək qabiliyyətidir. Bu anlamda missiyanı "dəyərlərə fokuslanmaq" qabiliyyəti kimi də təsəvvür etmək olar.

İdarəetmə aspektində liderlik missiyasını strateji idarəetmənin təməl anlayışlarından biri kimi də qəbul edə bilərik. Burada əsas hədəf liderin milləti müəyyən etdiyi və qarşısına qoyduğu başlıca məqsədə çatdırmaqdan ibarətdir. Bu keyfiyyətdə missiya üç tərkib hissəsinə ayrıla bilər: Birincisi, gələcəyi görməyi və başqalarını buna inandırmağı bacarmaq, ikincisi, baxışlarını həyata keçirmək üçün səmərəli strategiyanı formalaşdırmaq, üçüncüsü, komandanın hazırlanması və motivasiyası.

Deməli, liderin missiyası toplumu birləşdirməli, onlara nəyin uğrunda mübarizə aparmalı olduqlarını izah etməklə sıx bağlıdır. Bunu lider ideologiya vasitəsilə edə bilər. Milli ideya və ideologiya liderlik missiyasında mərkəzi yer tutur. Milli ideya və ideologiya vasitəsilə lider insanlara qarşıya qoyulan məqsədə çatmaq üçün inam, fəallıq və məqsədöyönlülük aşılayır.

Siyasi liderin missiyası vurğulanan məqamların hər birini özündə ehtiva edir. Lakin siyasi lider üçün üzərinə götürdüyü missiyanı yerinə yetirmək daha mürəkkəb, riskli, gözlənilməz və qeyri-müəyyənliklərlə xarakterizə olunan dinamik situasiyalarda uğurlu olmağı tələb edir. Bu isə missiyanın taktiki və strateji aspektləri arasında səmərəli dinamik əlaqə qurmağı tələb edir. Hər tarixi mərhələdə, bu, özəl məzmun ala bilər.

Bunlardan başqa, liderin missiyası onun miqyası, müddəti və məqsədi baxımından təsnif oluna bilər. Bu faktorlara görə, liderin adi missiyası ilə tarixi missiyası arasında məzmun və məqsəd fərqlərini də görmək lazımdır. Adətən liderin tarixi missiyası ölkə üçün çox böhranlı, siyasi və geosiyasi baxımdan olduqca həssas, yeni dövlətçilik səviyyəsinə yüksəlmək zərurəti yarananda aktuallaşır. Doğrudan da bu kimi möhtəşəm vəzifələrin öhdəsindən gəlmək üçün liderin fəaliyyəti başqa dövrlərdə olduğundan fərqlənməlidir. Təsadüfi deyildir ki, Qərb politologiyasında keçən əsrin 70–80-ci illərində və sovetlərin dağılmasından sonrakı dönəmdə uğurlu liderliyi, sözün həqiqi mənasında, "tarixi liderlik missiyası" anlayışı ilə sinonim kimi təqdim edirdilər.

## XX əsrdə Qərbdə liderlik missiyaları

Məsələn, keçən əsrin 70–80-ci illərində ABŞ və Avropada özünü göstərən güclü böhran tarixi missiya yerinə yetirə biləcək liderə ehtiyacın olduğu haqqında müzakirələr yaratmışdı. Həmin kontekstdə də ABŞ və Böyük Britaniya üçün "reyqanizm" və "tetçerimz" kimi anlayışlar məşhurlaşmışdı. Çünki həmin idarəetmə konsepsiyası sayəsində R.Reyqan və M.Tetçer liderləri olduqları ölkələri böhrandan xilas etmişlər ("reyqanizm" və "tetçerizm" mahiyyətcə monetar xarakterli konsepsiyalardır və kapital faktoru əsasında cəmiyyəti transformasiya etməyi nəzərdə tuturdu). Lakin fransız sosioloq Mişel Turana görə, həmin siyasət, ümumiyyətlə, Qərb cəmiyyətlərində sosial ədalətsizliyi gücləndirdi ki, bunun da fonunda R.Reyqan və M. Tetçerin liderlik missiyalarının tarixiliyi haqqında fikirlər haçalanır.

Lakin Henri Kissincerin 2022-ci ildə nəşr olunmuş əsərində XX əsrdə dünyada 6 liderlik strategiyasından bəhs edilir. Həmin strategiyalar, faktiki olaraq, liderin tarixi missiyası kateqoriyasına aid edilə bilər. H.Kissincer konkret olaraq, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Misir və Sinqapur liderlərinin straegiyasını politoloji təhlil edir. ABŞ-də Riçard Niksonun, Böyük Britaniyada Marqaret Tetçerin, Almaniyada Konrad Adenauerin, Fransada Şarl de Qollun, Misirdə Ənvər Sədatın və Sinqapurda Li Kuan Yunun liderlik strategiyalarını araşdırmışdır. R.Niksonun strategiyasını H.Kissincer "tarazlıq strategiyası", M.Tetçerin strategiyasını "inandırma strategiyası", K.Adenauerin strategiyasını "barış strategiyası", Şarl de Qollun strategiyasını "iradə strategiyası", Ə.Sədatin strategiyasını "transendent strategiya", Li Kuan Yunun strategiyasını "mükəmməllik strategiyası" adlandırır.

Belə görünür ki, XX əsrdə H.Kissincerin böyük önəm verdiyi 6 strategiyanın hər biri özəl məzmuna və məqsədə malik olmuşdur. Bunun səbəbi vurğulanan ölkələrin fərqli tarixi, siyasi, geosiyasi, sosial, iqtisadi və ideoloji mövqedə olması ilə əlaqəlidir. Deməli, liderin missiyasının məzmun və məqsədi ölkəni xarakterizə edən bir sıra faktorlarla sıx əlaqəlidir. Lakin maraqlıdır ki, qarşılarına qoyduqları məqsəddən asılı olmayaraq, H.Kissincer həmin 6 strategiyanı həyata keçirən liderlərin tarixi missiya yerinə yetirdiklərini ifadə edir. Bunu konkret parametrlərə görə müəyyən edir.

Həmin parametrlər liderin ölkəni düşdüyü vəziyyətdən keyfiyyətcə daha səmərəli vəziyyətə çıxarması, sosial-iqtisadi və mədəni aspektlərdə dövləti tamamilə yeni keyfiyyətlərə malik duruma transformasiya etməsi, yeni milli ideya formalaşdırması və yeni dünya nizamının formalaşmasına ciddi töhfə verməsindən ibarətdir. Yəni, H.Kissincer 6 strategiyanın hər birini həm konkret ölkə üçün, həm də dünya üçün oynadığı rola görə tarixi adlandırır. Həm də hər bir strategiyaya II Dünya müharibəsindən sonra yaranmış qlobal geosiyasi düzən fonunda qiymət verir.

Məsələn, K.Adenauer II Dünya savaşından sonra alman cəmiyyətini reallıqla, yaranmış vəziyyətlə barışmalı olduğuna inandıra bilmişdi, M.Tetçer ingilisləri özünün monetar siyasətinə Britaniyanın möhtəşəmliyini qorumaq kontekstində inandırmış, Şarl de Qoll iradəsinin hesabına məğlub Fransanı liderlər liqasına yenidən qaytara bilmişdir, Ə.Sədat ərəb dünyasının yəhudilər haqqında fikirlərini sözün həqiqi mənasında transdent edərək yeni münasibət formalaşdıra bilmişdi, R.Nikson Vyetnamdakı məğlubiyyətdən sonra amerikan cəmiyyətini dünya siyasətində tarazlığı gözləməyin vacibliyinə inandırmışdı. Onların sırasında Sinqapurun başçısı Li Kuan Yu daha möhtəşəm yeniliklər etmişdi. O, Sinqapuru həm Britaniya müstəmləkəsindən xilas etmiş, həm multikultural cəmiyyət yaratmış, həm yerləşdiyi regionda bir neçə dövlətin birliyinə nail olmuş, həm də Sinqapurun mükəmməl inkişafına nail olmuşdur.

Belə çıxır ki, H.Kissincerin seçdiyi 6 iderlik straegiyasını xarakterizə edən ümumi məqam liderlərin öz ölkələri və dünya üçün tarixi sayıla biləcək yeniliklər edə bilməsi, onların inkişafını tamamilə yeni istiqamətə yönəldə bilmələri ilə bağlıdır.

H.Kissincerin təhlillərindən və ümumi politoloji təsəvvürlərdən liderliyin tarixi missiyası haqqında nəticə əldə etmək olar.

## Tarixi liderlik missiyası

Hər şeydən öncə aydın olur ki, liderin missiyası o zaman tarixi adlandırıla bilər ki, qarşısına ölkəsinin inkişafını yeni keyfiyyət səviyyəsinə yüksəltmək məqsədini qoysun və ona uyğun strategiya hazırlasın. Həmin strategiyanı ardıcıl olaraq reallaşdırsın (eksklüziv formada). Bu zaman lider mütləq yeni milli ideya formalaşdırmalıdır. Cəmiyyətin sosial, siyasi, iqtisadi, mədəni və ideoloji parametrlərini yeni milli ideyaya uyğun "formatlaşdırmalıdır". H.Kissincerin məntiqinə görə, liderin yeni milli ideya müəyyən etməsi qarşısına qoyduğu yeni məqsədlərə çatmaq üçün bütövlükdə cəmiyyəti səfərbər etməsi zəruriliyi ilə bağlıdır. Milli ideya bu prosesdə əsas motivəedici və istiqamətverici mənəvi ideal gerçəklik kimi çıxış edir.

Bunlarla yanaşı, H.Kissincerin çox əhəmiyyətli bir şərti də diqqəti çəkir. Lider o zaman tarixi liderliyə yüksəlir ki, fəaliyyəti regionun və dünyanın yeni geosiyasi düzəninə ciddi töhfələr verir. Yəni liderin fəaliyyətinin tarixiliyi ölkə miqyası ilə məhdudlaşmaya bilər. Hər yeni tarixi mərhələdə öz ölkəsini uğurlu yeniləşmə xəttinə çıxarmaqla yanaşı, regional, multiregional və qlobal miqyaslarda dövlətlərarası münasibətlərə yeni düzən gətirə bilir. Yuxarıda vurğuladığımız dünyanın 6 strategiyası II Dünya savaşından sonra düzəni dağılmış dünyaya onların hər birinin gətirdiyi yeni qaydalar prizmasında qiymətləndirilmişdir. Faktiki olaraq liderin tarixi missiyası həmin düzənin formalaşdırılmasında həlledici rol oynamalıdır.

Burada qarşıya iki mühüm vəzifə çıxır. Birincisi, strategiyanı düzgün müyyənləşdirmək, ikincisi, onu eksklüziv həyata keçirmək. Bu iki vəzifənin vəhdətində çox sayda tarixi, şəxsi, siyasi, geosiyasi, milli, regional faktorlar qarşılıqlı əlaqədə olurlar.

## Strategiyanın düzgün müəyyənləşdirilməsi

Bu, liderlikdə çox mühüm komponentdir. Strategiyanı düzgün müəyyən etmək nəzəri və praktiki aspektlərin optimal nisbətini müəyyən etməyi qarşıya qoyur. Bu zaman lider həm fəaliyyətin çərçivəsini düzgün müəyyən etməlidir, həm də onun ideologiyasını gerçəkliklərə əsaslanaraq təyin etməlidir. Ulu öndər Heydər Əliyev azərbaycançılığı liderlik strategiyasının ayrılmaz hissəsi kimi məzmunlaşdırdı. Bu ideologiya özünün funksional potensialını XXI əsrdə də çox dolğun nümayiş etdirir.

Bunlarla yanaşı, liderlik strategiyası əsas məqsədi elə müəyyən etməlidir ki, verilən zaman kəsimində gerçəkçi və səmərəverici olsun. Ölkənin əsas ehtiyacını ödəsin. Ərazi bütövlüynün təmini başlıca məqsəd kimi çox düzgün seçim idi. Bu problemin həlli Azərbaycanı yeni tarixi mərhələyə çıxardı. Liderliyin tarixiliyi bununla sıx bağlıdır. Belə aydın olur ki, müasir mərhələdə Azərbaycan nümunəsində tarixi lider anlayışının mühüm tərəflərindən biri ölkənin bir tarixi mərhələdən digərinə transformasiyası ilə sıx əlaqəlidir.

Bu tezisin politoloji əhəmiyyəti Azərbaycanda XXI əsrdə liderin tarixi xidməti, bütövlükdə, ölkənin, dövlətin və cəmiyyətin transformasiyalarının tarixi məzmun kəsb etməsi kontekstində dərk olunmalıdır. Müqayisə üçün deyək ki, əgər Almaniyada və ya Fransada II Dünya savaşından sonrakı dönəmdə liderliyin tarixiliyi silsilə xarakterli parametrlərlə müəyyən olunmurdusa, Azərbaycan nümunəsində fərqli mənzərədir. Belə ki, Almaniya II Dünya savaşında məğlub oldu. Fransa da elə uğurlu ola bilmədi, hər halda müharibədən tarixi qələbə ilə təkbaşına çıxa bilmədi. Buna görə də K.Adenauer və Şarl de Qollun tarixi liderliyi məğlub ölkəni yaranmış yeni şərtlər daxilində uğurlu inkişaf xəttinə çıxarmaqda ifadə olunmalı idi. K.Adenauer barış strategiyası ilə buna nail oldu, Şarl de Qoll isə yüksək iradi keyfiyyətlər hesabına ölkəsi üçün tarixi xidmət göstərdi. Lakin bu tarixi transformasiyadan sonra nə Almaniyada, nə də Fransada liderliyin tarixi nümunəsi meydana gəldi. Onlar inkişaf etdilər, dünya geosiyasi sisteminə töhfələrini verdilər, lakin liderliyin tarixiliyi meyarları ödənmədi. Hətta Fransada hazırda liderlik böyük böhran içindədir – E.Makronun fəaliyyəti çox sual doğurur.

Deməli, XX əsrin 6 uğurlu liderlik strategiyası bir dəfə ölkəni irəli çıxarmışdır, lakin ondan sonra tarixi potensialı xeyli passivləşmişdir – yeni tarixi liderlik nümunələri gözə dəymir.

Azərbaycanda isə tarixi liderliklə bağlı tamamilə fərqli proseslər özünü göstərməkdədir. Bir mərhələnin tarixi liderliyi növbəti mərhələ üçün liderliyin tarixiliyinə münbit şərait yaratmışdır. Bu, Azərbaycanda tarixi liderliyə Heydər Əliyev–İlham Əliyev xətti üzrə fəlsəfi və politoloji yanaşmaya xeyli əsas verir.

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

---

REPLİKA

# Silah sazişi, yoxsa regional təxribat motivi?

## *Qərbin "parçala və hökm sür!" siyasəti ilə bağlı etüdlər*

**Məlum olduğu kimi, bir müddət əvvəl "Iran International" saytı İranla Ermənistanın gizli şəkildə dəyəri 500 milyon dollar olan silah-sursat müqaviləsi imzaladığına dair məlumat yaymışdı. Məlumatın Ermənistanın Müdafiə Nazirliyi tərəfindən təkzibolunma tərzi və tonu onu deməyə əsas verirdi ki, rəsmi İrəvan belə bir xəbərin yayılmasından ciddi əndişələnib. Nazirliyin mətbuat xidmətindən məlumatın düşünülməmiş və uydurulmuş olduğu bildirilmişdi. Qurumun rəsmisi Aram Torosyan demişdi: "Biz uydurulmuş məsələyə reaksiya vermirik".**

Ancaq Ermənistan tərəfinin əndişəsi görüntü də ola bilər, bu, öz yerində. Qeyd edək ki, dünən məsələyə dair daha bir təkzib reaksiyası İran tərəfindən verilib. Belə ki, İran İslam Respublikasının Ermənistandakı səfiri Mehdi Sobhani ölkəsinin Mehr İnformasiya Agentliyinə açıqlamasında deyib ki, Tehranla İrəvan arasında gizli silah sazişi barədə söylənilənlər yalandır. Onun sözlərinə görə, məsələ ilə bağlı xəbəri etibarsız kütləvi informasiya vasitələri yayıblar və onlar əvvəllər də İranla əlaqədar yalan məlumatlar və məqsədyönlü analitik materiallar tirajlamaları ilə gündəmə gəliblər. Səfir başqa nələri diqqətə çatdırıb, bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir məsələnin üzərində dayanaq.

Bəli, "Iran International"ın hansı mərama xidmət etdiyini söyləmək çətindir. Saytın materialları anti-İran yönümlüdür və ölkədəki hakimiyyətin tənqidinə, hətta ifşasına yönəlib. Onunla bağlı rekvizitlərə də rast gəlinmir. Ehtimal var ki, sayt Qərbin bəzi dairələri tərəfindən idarə olunmaqdadır. Belədə sual yaranır: "Iran International" İran–Ermənistan gizli silah sazişinə dair məlumatı hansı məqsədlə, nə üçün yayıb? Əlbəttə, suala birmənalı cavab tapmaq çətindir. Ona görə də müəyyən ehtimallar üzərində dayanacağıq. Amma bundan əvvəl səfir Sobhaninin fikirlərinin davamına diqqət yetirək.



Beləliklə, İranın Ermənistandakı ali diplomatik təmsilçisi bildirib ki, belə informasiyaların yayılmasının məqsədi Tehranın Cənubi Qafqaz regionu ölkələri ilə dostluq münasibətlərinin inkişafına mənfi təsir göstərməkdir. O, həmçinin vurğulayıb ki, İran Qafqaz regionunda sülhün və sabitliyin qərarlaşmasını, iqtisadi inkişafı dəstəkləyir.

Onu da bildirək ki, İranın Ermənistanı silahlandırmasına dair düşüncələr həmişə gündəmdə olub. Ancaq zaman-zaman bu fikirlər özünün azlıq və ya çoxluq amplitudası ilə seçilib. Hazırda İran–Azərbaycan, Azərbaycan–İran münasibətləri sakit məcradadır, dövlətlər arasında 2023-cü ildəki siyasi gərginlik aradan qalxıb. Üstəlik, qanlı terror səbəbindən Azərbaycanın ötən ilin yanvarından bağlanmış Tehrandakı səfirliyinin yenidən fəaliyyətə başlayacağı da vurğulanmaqdadır. Bununla yanaşı, İranın hazırda "region region ölkələri üçündür" şüarı ilə hərəkət etdiyinə dair formalaşmış yekun qənaət var. Bu qənaətin mövcudluğu o deməkdir ki, İslam respublikası kənar qüvvələrin Cənubi Qafqazda üstünlüyə yiyələnmək cəhdlərinə qarşıdır. Bəs kənar qüvvələri regiona gətirmək istəyən kimdir? Əlbəttə ki, Ermənistan.

Bəli, Ermənistan Qərbi Cənubi Qafqaza pərçimləməkdə, onun regionda üstün mövqeyə yiyələnməsində rol oynamaqda israrlıdır. Bunu İranda da, Rusiyada da, habelə Türkiyədə olduqca yaxşı dərk edirlər. Heç şübhəsiz, Qərbin Ermənistanı silahlandırması da diqqətdən yayınmır. Doğrudur, rəsmi Tehran sırf bu məsələyə dair sərt mövqeyini ortaya qoymur. Ancaq Rusiyada və Türkiyədəki kimi, İranda da anlayırlar ki, Qərbin Ermənistanı silahlandırması məsələsinə qarşı birbaşa mübarizə aparan Azərbaycandır. Həm də ona görə ki, İrəvana silah ixracı ölkəmizlə Ermənistanın sülh gündəliyi üzrə reallaşan prosesdir. Digər tərəfdən, Bakının regiondakı balanslaşdırma xətti və bu xətdən geri dönməyəcəyi hər kəsə, o cümlədən Tehrana yaxşı bəllidir. Yəni, Azərbaycandan hansısa təhlükənin olmayacağı, İrana, həmişə olduğu kimi, yenə də yaxşı bəllidir. Ona görə də onun hazırda Ermənistanı Azərbaycana qarşı silahlandırması bir o qədər real səciyyə daşımır.

Əslində, bu dolaşıq siyasi labirintdə Ermənistan MN-nin təkzibi də yerinə düşür. Doğrudur, rəsmi İrəvan belə bir məlumatın yayılmasından xəbərdar olmaya bilər. İrəvanda informasiyanın ölkə üçün ziyanlı tərəfləri üzərində dayanılması da mümkündür. Amma baş nazir Nikol Paşinyan administrasiyasının Qərbdəki hamilərini saziş məsələsinin doğru olmadığına inandırmaq imkanı var.

Deməli, düşünmək mümkündür ki, "Iran International"ın Tehranla İrəvan arasında gizli silah sazişindən söz açması həm də Azərbaycana qarşı təxribatdır. Təxribatın Qərbdə hazırlandığını da söyləyə bilərik. Nəzərə alaq ki, hazırda Ermənistanı silahlandıran konkret tərəflər var və onların dəstəklərindən söz açdıq. Fransa və Avropa İttifaqının hərbi yardım motivli jestləri, ABŞ hərbçilərinin Ermənistan ordusunda peyda olmaları, Ermənistan–ABŞ birgə hərbi təlimləri günümüzün reallığıdır.

Sonda mövcud reallıq kontekstində bu nəticə hasil olur: İranın köhnəki Tehran-İrəvan hərbi işbirliyi müstəvisinə "qaytarılması", İslam respublikasının Ermənistanın tərəfindən olduğu görüntüsünü ictimai rəyə daxil etməyə hesablanıb. Ehtimal var ki, böyük məqsəd ölkəni Azərbaycanın, Türkiyənin və Rusiyanın qəzəb ritorikasının hədəfinə çevirmək, etibarsız kimi qələmə verməkdir. Yekun məqsədin də Bakı–Ankara–Moskva–Tehran oxu üzrə təfriqə yaratmaq olduğunu vurğulamaq mümkündür. Bu yerdə yada imperializmin klassik fəaliyyət mexanizminə dair bir fikir düşür: Parçala və hökm sür!

**Əvəz RÜSTƏMOV**
**XQ**

# Azərbaycan Transqafqaz daşımalarının baş yoludur

**(əvvəli 1-ci səhifədə)**

Şübhəsiz ki, bütün bu uğurları, ilk növbədə, Prezident İlham Əliyevin mövcud sahəyə göstərdiyi diqqət və qayğı şərtləndirib. Bu fikrin təsdiqi olaraq bir faktı xatırlatmaq istərdik. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar imzaladığı 29 mart 2023-cü il tarixli Fərmanla beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsi sahəsində layihələrin həyata keçirilməsi "Azərbaycan Dəmir Yolları" QSC-nin fəaliyyətinə də müsbət təsir göstərib. Adıçəkilən qurumun məlumatına əsasən, son 15 il ərzində ölkəmizdə dəmir yolları ilə yükdaşımaların həcmində böyük artım qeydə alınıb. Bu artımı davamlı etmək üçün mövcud dəmir yolu xətləri yenilənib, eyni zamanda, yeni yollar salınıb. Xatırladaq ki, cari ilin may ayında Bakı–Tbilisi–Qars dəmir yolunun modernləşdirilməsi başa çatdırılaraq bu marşrutla yükdaşımalara start verilib. Ötürücülük qabiliyyəti 1 milyon tondan 5 milyon tona qədər artırılıb.

tariflərinin şəffaflığı və bu məsələdə proqnozlaşdırmaya üstünlük verilməsi də önə çəkilib.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.

Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.



gömrük orqanları üzərinə düşən vəzifə ləğv olunub. Eyni zamanda, beynəlxalq daşımalarla bağlı nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyənləşdirilən dövlət rüsumu da aradan qaldırılıb.

Beləliklə, beynəlxalq daşımaların iştirakçısı olan respublikamıza məxsus avtomobil daşıyıcılarının Azərbaycanın geniş nəqliyyat-logistika imkanlarından fəal və səmərəli istifadəsinə əlverişli şərait yaradılıb. Bu cür qayda beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payının artması və beynəlxalq səviyyədə rəqabətliliyin yüksəlməsi ilə nəticələnib.

Ölkəmizin tarixi İpək yolunun üzərində yerləşməsi, Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında səmərəli körpü rolunu oynaması və bütün bunların respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində yüksək uğurlar əldə etməsi ilə nəticələnməsi barədə Prezident İlham Əliyev çıxışlarının birində deyib: "Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır… Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar".

Bu baxımdan tranzit potensialının reallaşdırılması istiqamətində irimiqyaslı

Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı üzrə may ayında Azərbaycanın Astara rayonunda yük terminalı yenilənərək istifadəyə verilib, yükaşırma potensialının ilin sonuna qədər 1 milyon tona qədər artırılması planlaşdırılıb. Ümumilikdə, cari ilin yanvar-iyun aylarında 9,3 milyon tondan çox yük daşınıb ki, bunun da 3,9 milyon tona yaxını konteyner yükləri də daxil olmaqla tranzit yükü olub. Tranzit yükdaşımalar ötən illə müqayisədə 8 faizdən çox artıb.

Transxəzər Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) səmərəliliyinin artması da diqqət mərkəzində saxlanılır. Bununla bağlı Dünya Bankının (DB) yaydığı məlumata əsasən, bu maliyyə qurumu Orta Dəhlizin səmərəliliyini yüksəltmək üçün Azərbaycan, Qazaxıstan və Gürcüstana bütün nəqliyyat şəbəkəsi üzrə yüklərin izlənilməsi imkanının təminini tövsiyə edib. Bunun üçün həm dəmir yolu, həm də Xəzər dənizi ilə daşımaları əhatə edən vahid elektron sənəd dövriyyəsinə keçidin gerçəkləşdirilməsi zəruriliyi diqqətə çatdırılıb. Eyni zamanda, logistik qovşaqların yaradılması hesabına yüklərin konsolidasiyası, dəmir yolu nəqliyyatına keçidə yardım göstərilməsi və Şərqlə Qərb arasında yük axınlarının balansının yaxşılaşdırması əhəmiyyəti vurğulanıb. Bundan başqa, yekun nəqliyyat

Orta Dəhlizlə bağlı bir məqamı da vurğulamaq istərdik. Belə ki, Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən bu dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

İqtisadi baxımdan səmərəli, siyasi cəhətdən də xüsusi əhəmiyyətə malik Orta Dəhliz Avrasiya regionunda son illər ən çox müzakirə olunan məsələlərdən biridir. Çinin "Bir kəmər, bir yol" layihəsinin bir hissəsi kimi bu dəhliz, həmçinin tarixi İpək yolunun ən mühüm komponentlərindən biri kimi dəyərləndirilir. Buna görə də Orta Dəhliz üzrə tranzit müddətinin 2024-cü ildə 18-23 gündən 14-18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.

Onu da xatırladaq ki, 2023-cü ildə Orta Dəhliz çərçivəsində yükdaşımaların həcmi, təqribən, 90 faiz artaraq 2 milyon tonu keçib. Yeri gəlmişkən, 2022-ci ildə marşrut üzrə yükdaşımaların həcmi 2,5 dəfə artaraq 1,5 milyon tona çatıb. Mövcud marşrutlara ciddi alternativ kimi dəyərləndirilən dəhlizin ümumi ötürücülük qabiliyyəti isə il ərzində 5,8 milyon ton yükə hesablanıb.

# KOB evləri beynəlxalq marağa səbəb olub

**Azərbaycanın KOB evi modeli beynəlxalq səviyyədə uğur əldə edib. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzinin keçirdiyi müsabiqədə ekspertlər KOB evlərini qabaqcıl innovativ təcrübələrdən biri kimi qiymətləndiriblər. Ölkəmizin sahibkarlara xidmət sahəsində nümunəvi modeli olan KOB evləri barədə qurumun saytında məlumat paylaşılıb.**



Məlumat üçün bildirirk ki, İƏİT-in Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzinin saytında 2003-cü ildən ideyaların və yeniliklərin paylaşıldığı bölmə fəaliyyət göstərir. Burada dünyanın 90-a yaxın ölkəsində mövcud olan innovasiyalar barədə məlumatlar qeyd olunur ki, onların arasında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) strukturuna daxil olan KOB evləri də yer alır.

Saytda dərc olunmuş məlumatda KOB evləri biznesin planlaşdırılması, biznesə başlanması, biznesin idarə edilməsi və inkişafı üzrə kiçik və orta biznes qurumlarına xidmətlər təqdim edən "bir pəncərə" mərkəzi kimi təqdim edilir. KOB sektorunun inkişafına töhfə vermək üçün dövlət və özəl qurumların imkanlarının bir platformada birləşdirilməsi və əlaqələndirilməsi unikal təşəbbüs kimi qiymətləndirilir.

Qeyd edək ki, İƏİT-in 2011-ci ildə yaradılmış Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzi dövlət sektorunda qabaqcıl innovasiyaların tətbiqinə və təbliğinə dəstək verən qlobal forumdur. Mərkəz dövlətlərə dəstək məqsədilə qabaqcıl innovativ təcrübələr, yeni ideyalar, biliklər, alətlər və əlaqə vasitələrini paylaşan platforma rolunu oynayır.

Yeri gəlmişkən, KOBİA-nın beynəlxalq əlaqələrinin genişlənməsindən bəhs edərkən bir məqamı da xatırladaq. Bu ilin mart ayında adıçəkilən qurum BMT-nin Qlobal Sazişinə qoşulub. KOBİA-nın məlumatına əsasən, agentlik BMT-nin Qlobal Sazişinin iştirakçısı olaraq strategiya və fəaliyyətini Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq prinsiplərinə uyğunlaşdırmaqda, KOB-ların inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək göstərməklə qlobal davamlı inkişaf strategiyasına öz töhfəsini verməkdə davam edəcək.

KOBİA hazırda 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçiriləcəyini nəzərə alaraq fəaliyyətində və KOB-larla iş prosesində ətraf mühit məsələlərinə, "yaşıl iqtisadiyyat"ın təbliğinə diqqəti daha da artırıb.




# Azərbaycan–Serbiya: Enerji sahəsində əməkdaşlıq genişlənir

**Azərbaycanın Avropadakı əsas enerji tərəfdaşlarından olan Serbiya yaxın gələcəkdə ölkəmizdən daha çox təbii qaz ala bilər. Hazırda tərəflər bu məsələni geniş müzakirə edirlər. Bakıda keçirilən Azərbaycan və Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclasında bununla bağlı ətraflı fikir mübadiləsi aparılıb.**

Xatırladaq ki, 2023-cü ilin noyabrın 15-də Bakıda Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Srbijagas" arasında 2024-cü ildə Serbiyaya 400 milyon kubmetrə qədər qazın nəqli haqqında müqavilə bağlanıb. Müqaviləyə əsasən, 2024-2026-cı illərdə Serbiya ölkəmizdən il ərzində 400 milyon kubmetrədək qaz alacaq. Bu il iyulun 1-dək isə Azərbaycan Serbiyaya 26 milyon kubmetr qaz ixrac edib.

Hökumətlərarası komissiyanın iclasında Serbiyanın mədən və energetika naziri Dubravka Djedoviç Handanoviç bəyan edib ki, 2027-ci ildən etibarən ölkəsi Azərbaycandan qaz tədarükünün həcmini 1 milyard kubmetrədək artıracaq. Onun sözlərinə görə, Azərbaycanla qaz nəqli üçün bütün məsələlər artıq həll olunub.

Bununla yanaşı, tezliklə Azərbaycan qazının Serbiyadan nəqli ilə bağlı işlərə də başlanılacaq. SOCAR-ın vitse-prezidentinin müavini Vitali Bəylərbəyov Azərbaycan və Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasında bildirib ki, bununla da, "mavi yanacağ"ın Serbiya ərazisindən nəqli üzrə əməkdaşlıq genişləndiriləcək və yaxın aylarda bu istiqamətdə fəaliyyətə başlanılacaq.

Məlum olduğu kimi, Prezident İlham Əliyev ötən il dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan qaz interkonnektorunun açılış mərasimində iştirak edib. Dövlət başçısı mərasimdəki çıxışında Azərbaycanın Serbiya və Bolqarıstanla münasibətlərinin strateji əməkdaşlıq və dostluq prinsipləri əsasında inkişaf etdiyini bildirib. Xatırladaq ki, Serbiya ilə Bolqarıstanın qaz şəbəkəsini birləşdirən interkonnektorun illik ötürücülük gücü 1,8 milyard kubmetrdir. Bu, Serbiyanın illik qaz tələbatının 60 faizi deməkdir. İnterkonnektor Bolqarıstan vasitəsilə Serbiyanın Yunanıstan ərazisindəki maye qaz terminallarına çıxışını da təmin edir ki, bu da ölkənin Rusiyadan olan qaz asılılığını ciddi şəkildə azaltmasına imkan verəcək.

Yeri gəlmişkən, təbii qaz sahəsində tərəfdaşlıqdan başqa SOCAR həm də Serbiya bazarına xam neft ixrac edir. Bu ilin ilk altı ayında Serbiyaya xam neft tədarükünün 2023-cü illə müqayisədə, təxminən, iki dəfə artdığını diqqətə çatdıran V. Bəylərbəyovun dediyinə görə, SOCAR bununla Azərbaycan ilə Serbiya arasında əməkdaşlığa töhfə vermək niyyətindədir.

Xatırladaq ki, 2020-ci il dekabrın 31-də Trans-Adriatik Boru Kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının Avropadakı istehlakçılara çatdırılmasına başlanılıb. İlk vaxtlardan Yunanıstan, İtaliya, sonra isə Bolqarıstan, Rumıniya və Macarıstan ölkəmizdən qaz alıb. Bu ildən isə Serbiyanın da bu siyahıya daxil olması ilə Azərbaycanın ixrac coğrafiyası bir qədər də genişlənib. Göründüyü kimi, Azərbaycan qazına "köhnə qitə"də böyük ehtiyac var. Bununla belə, Avropadakı bəzi dairələrin ölkəmizlə enerji əməkdaşlığı, xüsusən də qazın tədarükü ilə bağlı qeyri-müəyyən fikirləri təəssüf doğurur. Məsələn, bəziləri Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırdıqları halda, digərləri lazımi infrastrukturun yaradılması sahəsində heç bir iş görmək istəmirlər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda bu məsələdə riyakarlığa son qoyulmasının vacibliyini diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib: "Avropa bir tərəfdən bizdən xahiş edir ki, hasilatı artıraq və onu Avropaya nəql edək. Çünki onların buna ciddi ehtiyacı var. Digər tərəfdən onlar bunu maliyyələşdirmirlər. Onlar istəyirlər ki, biz Cənub Qaz Dəhlizini genişləndirək, 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər, söhbət TANAP-dan gedir. TAP-ı 10 milyarddan 20 milyard kubmetrə çatdıraq. Biz oraya milyardlarla pul yatırmalıyıq. Onlar gözləyirlər ki, biz oraya milyardlarla vəsait yatıraq. Eyni zamanda, deyirlər ki, on ildən sonra Avropa İttifaqının qaza ehtiyacı olmayacaq. Yəni, biz ağılsızıq ki, onların ehtiyacı olmayacağı qaza on milyard dollarlarla vəsait qoyaq?!".

Bununla yanaşı, Prezident İlham Əliyev deyib ki, Azərbaycan qazının Avropaya nəqlini iki dəfə artırmaq Bakının hədəfidir və bu istiqamətdə işlər irəliləyir: "2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qaz nəql edirdik. Bu il təkcə Avropaya 13 milyard kubmetrə yaxın təbii qaz nəql ediləcək. Ümumi həcm isə 21 milyard kubmetr olacaq. 2027-ci ilin sonuna qədər biz Avropaya ixracı 16 milyard kubmetrə çatdırmalıyıq. Bu resursların Avropaya mövcud nəqliyyat şəbəkəsi – Cənub Qaz Dəhlizi, həm də onun interkonnektorları vasitəsilə çatdırılması planlaşdırılır", – deyə dövlətimizin başçısı əlavə edib.

Energetika Nazirliyinin proqnozlarına əsasən, 2030-cu ildə Azərbaycanda əmtəəlik qaz hasilatı 45 milyard kubmetrə qədər artacaq. Bu həcmə nail olmaq çox realdır, çünki yataqlar işlənir, zəruri sərmayələr qoyulur.

# "AzərEnerji" Laçında ixtisaslaşdırma və işəgötürmə kursları təşkil edib

**Laçın rayonunda tikilən kiçik su elektrik stansiyalarında işlə təmin olunan əməkdaşların təhsil və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə "Azərenerji" ASC Dövlət Məşğulluq Agentliyi ilə birlikdə 4 mərhələdən ibarət "Hidrotexniki qurğuların istismarı" üzrə praktik təlim-kursu keçirib.**



Təlimdə Laçın rayonu ərazisində 9 yerdə istismara verilən Kiçik Su Elektrik Stansiyalarında çalışan 36 nəfər işçi iştirak edib. Onlardan məhz 7 nəfəri hazırda ərazidə məskunlaşan əhali arasından seçilərək yerindəcə işlə təmin olunanlardır. Ümumilikdə isə 36 nəfərdən 26 nəfəri Laçın rayonundan olan məcburi köçkünlərdir və onlardan 19 nəfəri yaxın vaxtlarda dövlət tərəfindən evlə təmin ediləcək.

"AzərEnerji"nin təşkil etdiyi kurslar bitdikdən sonra Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Respublikası Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəliyinin əməkdaşları ilə birlikdə təlimdə iştirak edən işçilərə "Sertifikatlar" təqdim edilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# COP29: “Odlar yurdu” qlobal iqlim çağırışları mərkəzində

**COP birlik konfransları dünyada qlobal problemlərdən biri olan iqlim dəyişiklikləri ilə mübarizədə ölkələrin birgə səylərini birləşdirir. Bu toplantılar müxtəlif ölkələrin dövlət başçılarını, çoxsaylı beynəlxalq təşkilatları, qeyri-hökumət qurumlarını və media nümayəndələrini bir araya gətirir. Belə mötəbər beynəlxalq tədbirlərin əsas məqsədi iqlim dəyişikliyi ilə mübarizədə inkişafı dəyərləndirmək, bu istiqamətdə daha böyük uğurlara nail olmaq və qlobal iqlim fəaliyyətləri üçün müəyyən çərçivələr yaratmaqdır.**




***Bu fikirləri Azərbaycan Turizm və Menecment Universitetinin beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Şəbnəm Zeynalova XQ-yə müsahibəsində bildirdi. Ölkəmizin cari ilin payızında keçiriləcək COP29 konfransına evsahibliyi etməsini Azərbaycanın imicinə verilən dəyər kimi qiymətləndirən müsahibimiz fikirlərinə əlavə olaraq dedi:***

– Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Azərbaycanda keçirilməsi dövlətimizin dünya səviyyəsində ən öncül mövqedə qərarlaşmasından xəbər verir. Bu, eyni zamanda, respublikamızın “yaşıl enerji” və iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq niyyətini bir daha gündəmə gətirir. COP29 Azərbaycanın “yaşıl artım” ölkəsi kimi beynəlxalq nüfuzunu yüksəltməklə yanaşı, sözügedən sahənin inkişafına potensial investorların cəlbini də şərtləndirir.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də və bir sıra mühüm sənədlərdə respublikamızda ətraf mühitin yaxşılaşdırılması, “yaşıl enerji” istehsalının diqqət mərkəzində saxlanılması, həmçinin işğaldan azad olunan ərazilərdə təmiz ətraf mühitin gerçəkləşdirilməsi istiqamətləri xüsusi yer alıb. Şübhəsiz ki, bütün bunlar Prezident İlham Əliyevin “yaşıl enerji” istehsalının inkişafına, ətraf mühitin yaxşılaşdırılmasına olan diqqət və qayğısından irəli gəlib. Ümumiyyətlə, dövlətimizin başçısı prezidentlik fəaliyyətində bərpaolunan enerji layihələri gündəliyinin icrasını daim diqqətdə saxlayıb. Ölkə rəhbəri çıxışlarının birində bu barədə deyib: “Qarşıda duran ən vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Bizim planlarımıza görə, 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro – su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq”.

Prezident İlham Əliyev bu mövzu ilə bağlı çıxışlarında bundan sonra da elektrik enerjisinin böyük hissəsinin bərpaolunan enerji hesabına istehsal ediləcəyini, bununla da Azərbaycanın iqlim dəyişikliyi məsələlərinə öz töhfəsini verəcəyini əminliklə vurğulayıb.

***– “Yaşıl enerji”yə keçidlə bağlı nəzərdə tutulan işlər barədə fikirləriniz də maraqlı olardı...***

– Azərbaycan dünya miqyasında yenilənən enerji yolunda sürətlə irəliləyir, geniş təbii sərvətlərini və strateji mövqeyini möhkəmləndirərək enerji istehsalında müasir texnologiyalar tətbiq edir. Ölkəmiz “yaşıl enerji” strategiyası ilə yalnız karbon emissiyalarını azaltmaq məqsədi deyil, həm də enerji təhlükəsizliyini və iqtisadi müstəqilliyini gücləndirməyə nail olur. COP29-un keçirilməsi, eyni zamanda, ölkəmizdə yenilənən enerji layihələrinə innovasiyaları və xarici investisiyaları cəlb etmək məqsədi daşıyır.

Məlum olduğu kimi, 2016-cı ildə Avropa İttifaqı tərəfindən “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanun layihəsi hazırlanıb və 2022-ci ildə qüvvəyə minib. Qanunda enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədi və dövlətin vəzifələri, enerji effektivliyi üzrə xidmətlərin təşkilinə dair məqamlar, istehlak olunan enerjinin hesablanması, istehsalı, saxlanılması, ötürülməsi, paylanması və təchizatında səmərəlilik məsələləri öz əksini tapıb.

“Yaşıl enerji”yə keçid Azərbaycan dövlətinin enerji siyasətinin əsas istiqamətlərindən biridir. Ölkənin enerji balansında “yaşıl enerji” mənbələrindən əldə edilən enerjinin payının getdikcə artırılmasına nail olmaq enerji sektorunda aparılan islahatların əsas məqsədlərindən biridir. Azərbaycan “yaşıl enerji” sahəsində beynəlxalq təşkilatlar, müxtəlif ölkələr və sərmayədarlarla fəal əməkdaşlıq edir.

Postmünaqişə quruculuğu ilə bağlı dövlətimizin başçısının siyasəti Azərbaycana işğaldan azad edilən ərazilərdə regional iqtisadi inteqrasiyanı təmin edəcək layihələrlə Avrasiyanın strateji əhəmiyyətli nəqliyyat və logistika, həmçinin “yaşıl enerji” mərkəzinə çevrilmək imkanı verir. Bu baxımdan Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzuru xalis sıfır emissiyalı “Yaşıl enerji zonası” elan etməsi məhz belə bir mütərəqqi inkişaf siyasətinin təzahürüdür. Bu cür inkişaf modeli isə Azərbaycanın təmiz ətraf mühitə malik “yaşıl artım”, “yaşıl enerji”ni istehsal və ixrac edən ölkəyə transformasiyasında düşməndən təmizlənən ərazilərin rolunu gücləndirir.

Qeyd edim ki, düşməndən təmizlənən ərazilərdə 2022-2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması üzrə çoxistiqamətli tədbirlərlə ölkəmizdə bərpaolunan enerjinin inkişafı geniş vüsət alır. Bu ərazilərin bərpaolunan enerji mənbələri üzrə potensialı 10 min meqavata yaxındır. Qeyd olunan potensial əsasında 4 il ərzində ümumi gücü 780 MVt olan külək, günəş və iri su elektrik stansiyalarının inşası nəzərdə tutulur.

***– İqlim dəyişmələrinə qarşı mübarizə necə aparılır?***

–İlk növbədə, qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Sənəddə qeyd edilir ki, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyənləşdirilmişdir. Respublikanın enerji sektorunda bərpaolunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi prioritetdir və respublikada 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması hədəflənib, 2030-cu ilədək elektrik enerjisində bərpaolunan enerjinin payının 30 faizə çatdırılması nəzərdə tutulub. Ölkə rəhbəri tərəfindən bu istiqamətdə qəbul edilən qərarların, “yaşıl enerji” zonası, “yaşıl kənd təsərrüfatı”, “yaşıl nəqliyyat”, “ağıllı şəhərlər”, “ağıllı kəndlər” kimi yanaşmaların tətbiqi həm regional, həm də qlobal miqyasda iqlim dəyişmələrinin təsirləri ilə mübarizə üçün əhəmiyyətli addımlardır.

Azərbaycan hazırda bəzi ekoloji problemlərlə üzləşir və onların həlli bütün maraqlı tərəflərdən kompleks və əlaqələndirilmiş yanaşma tələb edir. Hökumət orqanları və müvafiq təşkilatlar strateji siyasətlərin işlənib hazırlanması və kifayət qədər investisiyaların ayrılması üçün əməkdaşlıq etməlidir. Eyni zamanda, maarifləndirmənin artırılması, fəal iştirakın təşviq edilməsi və “yaşıl gündəliy”in həyata keçirilməsi üçün kollektiv fəaliyyəti səfərbər etməklə bağlı ictimai səylər stimullaşdırılmalıdır.

Azərbaycan COP29-a evsahibliyi etməklə qlobal iqlim dəyişikliyi istiqamətində dünyaya önəmli töhfələr verməyi, davamlı inkişaf məqsədlərinə nail olmağı qarşıya mühüm vəzifə kimi qoyub. Bir sözlə, enerji siyasətindəki uğurları, bərpaolunan enerji resurslarına sərmayə qoymaq istəyi və iqlim dəyişikliyi ilə mübarizə əzmi respublikamızın davamlı gələcək üçün atdığı addımların təzahürüdür. Beynəlxalq aləm Azərbaycanın bu platformada liderliyi gerçəkləşdirməsi ilə dünyada iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin yaradılmasına töhfə verəcəyinə də əmindir.

***Müsahibəni hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

# Xəzərin küləyi də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək

**Xəzər regionundan “yaşıl” elektrik enerjisinin Avropaya çatdırılması üçün Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan tərəfindən həyata keçirilən enerji dəhlizi layihəsi Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək və Serbiya bu mühüm təşəbbüsü yaxından öyrənir. Bu barədə Serbiyanın Mədən və Energetika Nazirliyinin dövlət katibi Stefan Srblyanoviç Bakıda Azərbaycan və Serbiya arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclasında deyib.**

Komissiyanın azərbaycanlı həmsədri Sahil Babayev Serbiyanın yaxın gələcəkdə Azərbaycandan “yaşıl enerji” alacağını və müvafiq sazişin hazırlana biləcəyini istisna etməyib. “Yaşıl enerji” əməkdaşlıq üçün



çox vacib sahədir. Bu kontekstdə “Xəzər–Azərbaycan–Gürcüstan–Qara dəniz vasitəsilə Avropa “yaşıl enerji” dəhlizinin yaradılması böyük əhəmiyyət kəsb edir. Bu dəhliz Azərbaycandan Avropaya 4 qiqavat “yaşıl enerji” təchizatı üçün nəzərdə tutulub. Rumıniya və Macarıstanla razılaşmalar var, bu məsələ ilə bağlı Serbiya ilə ilkin danışıqlar aparılıb”, – deyə S. Babayev jurnalistlərə bildirib. Onun dediyinə görə, cari ilin ikinci yarısında bu layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanması başa çatacaq və bundan sonra yekun qərarlar veriləcək.

Azərbaycanın dəniz külək enerjisi potensialının 150 qiqavatı ötdüyünü vurğulayan nazir yaxın gələcəkdə Serbiya ilə “yaşıl enerji” layihələri ilə bağlı razılığa gəlinəcəyinə ümid etdiyini bildirib. S. Babayev deyib ki, bu məsələ komissiyanın iclasından sonra Bakıda imzalanmış protokolda öz əksini tapıb. Onun sözlərinə görə, Serbiya bazarına ənənəvi enerji resursları təchizatçısı olan Azərbaycan gələcəkdə bu ölkəyə “yaşıl enerji” də ixrac edə bilər.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin yeni enerji siyasətinin əsas istiqamətlərindən biri də Azərbaycanın Avropanın dekarbonizasiyasında fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla “köhnə qitə”nin mühüm elektrik enerjisi, əsasən də, “yaşıl enerji” təchizatçısına çevrilməyi hədəfləyir. Bunun isə yaxın illərdə reallaşacağı şübhəsizdir.

Çünki bu istiqamətdə artıq ilk ciddi addımlar atılıb. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Əldə edilən razılaşma çərçivəsində Qara dəniz enerji sualtı elektrik kabelinin tikintisi nəzərdə tutulur. Həmin kabel Azərbaycanda hasil edilən “yaşıl” elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Macarıstana və Avropanın qalan hissəsinə çatdırmaq üçün Rumıniyaya tədarük edəcək. Sözügedən saziş Azərbaycanın “yaşıl enerji”sinin Avropaya çatdırılmasını nəzərdə tutur. Sazişə əsasən, Qara dənizin dibi ilə 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda elektrik enerjisi kabeli çəkiləcək. Bu da ölkəmizdə istehsal olunan “yaşıl enerji”nin Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan “köhnə qitə”nin enerji təhlükəsizliyinin daha dolğun və əhatəli şəkildə təmin olunmasında yaxından iştirak edəcək.

Artıq Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya istiqamət götürəcək “yaşıl kabel” layihəsinin texniki-iqtisadi əsaslandırılması sonuncu mərhələyə qədəm qoyub. Texniki-iqtisadi əsaslandırma hazır olan kimi işlərə başlanacaq. Göründüyü kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə də deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi ilə bağlı mühüm işlər görür. Bu istiqamətdə birgə əməkdaşlığın isə Azərbaycan iqtisadiyyatına çox böyük fayda gətirəcəyi şəksizdir.

***XQ***

# “Yaşıl enerji” layihələrinin icrası müzakirə edilib



**Energetika Nazirliyində “Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış komissiyanın növbəti iclası keçirilib.**

Nazirlikdən verilən məlumata görə, komissiyanın sədri, energetika naziri Pərviz Şahbazov sərəncamın icrası ilə bağlı gündəlikdə olan məsələləri diqqətə çatdırıb, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində komissiya qarşısında duran vəzifələrdən bəhs edib.

Gündəliyə müvafiq olaraq komissiyanın son iclasından bu günədək görülmüş işlərə dair katibliyin hesabatı dinlənilib. Daha sonra bərpaolunan enerji mənbələri üzrə hərracların keçirilməsinə dair mövcud vəziyyət, “yaşıl enerji” layihələrinin şəbəkəyə inteqrasiyası ilə bağlı görülmüş işlər haqqında məlumatlar təqdim edilib, elektromobillik üzrə milli Fəaliyyət Planının əsas müddəaları müzakirə olunub. Həmçinin BP şirkəti tərəfindən həyata keçirilən “Şəfəq” GES layihəsi ilə bağlı görülən işlər və digər cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İclasda Energetika, İqtisadiyyat, Maliyyə, Ədliyyə, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mərkəzi Bank, Minatəmizləmə Agentliyi, “Azərenerji” ASC, “Azərişıq” ASC, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin nümayəndələri iştirak ediblər.

***XQ***

# Böyükşor Günəşdən enerji yığır

## *Üzən elektrik stansiyası fəaliyyətə başlayıb*

**Azərbaycanın elektroenergetika sənayesi üçün unikal sayılan yeni stansiya istismara verilib. Qurğu Bakı yaxınlığındakı Böyükşor gölündə fəaliyyət göstərəcək.**



100 kilovat gücündə olan “Böyükşor” üzən günəş elektrik stansiyası İspaniyanın “Gamma Solutions” şirkəti tərəfindən Asiya İnkişaf Bankının (AİB) qrantı hesabına inşa edilib. Sstansiyanın panellərinin üç əsas bloku fotovoltaik daimi cərəyan generatorunun günəş enerjisini elektrik enerjisinə çevirmə effektindən istifadə etdiyi günəş batareyası prinsipi əsasında işləyir. Dəyişən cərəyan gücünə malik olan stansiyanın 100 kilovatlıq gücünün 95 kilovatı birbaşa olaraq stansiyanın üzən hissəsinin (FPV), 5 kilovatı isə yerüstü hissəsinin payına düşür.

Layihə AİB-in Azərbaycan, Qırğızıstan və Əfqanıstanı əhatə edən “Üzən günəş enerjisi sistemlərinin inkişafı” regional təşəbbüsünə daxildir. Yeri gəlmişkən, layihənin icraçısı “Gamma Solutions” şirkəti 20-yə yaxın ölkədə fəaliyyət göstərir və portfelinə dünya üzrə 50-dən çox bərpaolunan enerji layihəsi (fotovoltaik və külək elektrik stansiyaları) malikdir.

Qeyd edək ki, hazırda Azərbaycanın ümumi enerji balansında (o cümlədən hidroenergetikada) bərpaolunan enerji mənbələrinin payı 15 faiz təşkil edir. 2030-cu ilə qədər isə bu göstəricinin 30-33 faizə çatdırılması planlaşdırılır.

***XQ***

# Yaddan çıxmaz Qərbi Azərbaycan!

**Qərbi Azərbaycan İcmasının Xaçmazda Şimal bölgəsi rayonlarının təhsil işçiləri ilə keçirdiyi görüşdə qaçqın soydaşlarımızın ulu yurda qayıdışı ilə bağlı görülmüş işlər, qarşıda duran vəzifələr diqqət mərkəzində olub.**



Elm və Təhsil Nazirliyinin məsul əməkdaşı Rövşən Ağayev belə görüşlərin keçirilməsinin yüksək əhəmiyyət daşıdığını vurğulayaraq bildirib ki, Azərbaycan xalqının tarixi yaddaşında və milli şüurunda əzəli yurd yerimiz olan Qərbi Azərbaycan həqiqətləri önəmli yer tutur. O qeyd edib ki, ermənilərin azərbaycanlılara qarşı müxtəlif illərdə törətdiyi zorakı hərəkətlərin, xüsusilə soydaşlarımızın öz doğma yurdlarından zorla qovulmasına ümummilli lider Heydər Əliyevin verdiyi siyasi qiymət və Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış hərəkatına göstərdiyi rəsmi dəstək icmanın hazırlıq tədbirlərinin strateji yol xəritəsidir.



Görüşdə qeyd edilib ki, Ulu öndərin dediyi aşağıdakı sözlər Qayıdış hərəkatının yoluna gur işıq salır: "Mən inanıran, mən tam inanıram ki, hər şey ədalət naminə dəyişəcək bütün bölgədə. Mütləq, mütləq siz gələcəkdə hələ gedib öz gözəl Göyçə torpağınızı da görəcəksiniz. Öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm". Prezident İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyətli liderliyi sayəsində 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra Qərbi Azərbaycandan olan soydaşlarımızın da vaxtilə didərgin salındıqları ata-baba yurdlarına qayıdacağına inamı artıb.

Qərbi Azərbaycan İcmasının Xaçmaz rayonu üzrə sədri Bəxtiyar Haqverdiyev isə bildirib ki, görüşün əsas məqsədi təhsil müəssisələrində çalışan Qərbi Azərbaycan qaçqınları ilə sıx ünsiyyət qurmaq, tarixin müxtəlif dönəmlərində ermənilərin törətdikləri deportasiya və soyqırımları barədə həqiqətləri gündəmə gətirmək, Böyük Qayıdış Proqramından irəli gələn vəzifələri müzakirə etmək və fikir mübadiləsi aparmaq, günün suallarını cavablandırmaqdır. Bununla bərabər, düşmənin xarabalığa çevirdiyi qədim yurd yerlərimizin xalqımızın doğma vətəni olduğunu yenidən bütün dünyaya çatdırmalı, Qərbi Azərbaycanda yaradılmış mədəni irsi qoruyub yaşatmaq üçün səyləri birləşdirməliyik. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: " Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar".

Xaçmaz şəhər 2 nömrəli tam orta məktəbin təsərrüfat işləri üzrə direktor müavini Məmməd İmamquliyev erməni millətçilərinin zaman-zaman onlara qarşı təcavüz və vandallıq əməlləri törətdiklərini bildirib. O, dədə-baba torpaqlarından köçkün düşmələrindən, onlara vurulan yaralardan, erməni vəhşiliklərindən qorunmaq üçün kahalarda gizlənmələrindən, təzyiq və haqsızlıqlara məruz qalmalarından, işgəncələrdən söz açıb.

Xaçmaz şəhər 7 nömrəli tam orta məktəbin direktoru Şamama Nəsirova, Quba rayonu İsnovqışlaq kənd tam orta məktəbin müəllimi Mahirə Nəbiyeva, Siyəzən rayonu Gilgilçay stansiya tam orta məktəbin müəllimi Nəcibə Əfəndiyeva, Quba rayonu Qaraçay qəsəbə tam orta məktəbin müəllimi Nüşabə Allahverdiyeva, Quba Rayon Peşə Liseyinin müəllimi Rəhim Qədirov ötən əsrdə Qərbi azərbaycanlıların davamlı olaraq soyqırımı və deportasiyalara məruz qalmalarından söz açıblar. Natiqlər Qərbi Azərbaycanın qədim dövrlərdən bəri xalqımızın doğma vətəni olduğunu sübut edən faktlardan, bu yerdə yaradılmış mədəni irsin qorunmasından və qayıdış hərəkatında bu özülə əsaslanmağın zəruriliyindən danışıblar.

Qərbi Azərbaycan İcmasının sektor müdiri Əbdüləli Həsənov müzakirə edilən mövzunun aktuallığına və əhəmiyyətinə toxunub. İcmanın koordinatoru İmam Məmmədov Qərbi Azərbaycan ərazilərinə tarixi, mədəni və hüquqi baxışlar əsasında qayıdışın yollarından danışıb. Onlar qeyd ediblər ki, bu gün Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda bərpa-yenidənqurma işləri həyata keçirir, məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdırlar. Qərbi azərbaycanlı vətəndaşlarımız da öz dədə-baba yurdlarına qayıdıb orada yaşamalıdırlar.

Sonda Qərbi Azərbaycan tarixini əks etdirən və gələcək nəsillərə çatdıran dərs vəsaiti və monoqrafiyaların hazırlanmasının vacibliyi qeyd edilib.

**T.RÜSTƏMLİ**
**XQ**

# Dədə Ələsgərin irsi ulu yurda səsləyir

**Qərbi Azərbaycan çoxəsrlik milli mədəniyyətimizin ulu qaynaqlarından biridir. Tarixən xalqımıza bir çox qəhrəmanlar və elm-mədəniyyət xadimləri bəxş etmiş bu torpağın Aşıq Ələsgər kimi bir dahi yetirməsi bu qədim türk yurdunun necə zəngin bir mədəniyyət üzərində dayandığının parlaq göstəricisidir.**



Qarabağ Zəfərimizdən sonra Qərbi Azərbaycana Qayıdış hərəkatının aktuallaşması isə bir daha göstərir ki, bu tarixi mahallardan vəhşiliklə qovulmuz soydaşlarımızın doğma yurdlarına qayıtması əzəli insanlıq haqqı olmaqla yanaşı, həm də qarşısıalınmaz bir prosesdir. Son 2 ildə Qərbi Azərbaycanın qonşuluğunda yerləşən Naxçıvanda festival-konqreslərin, ölkəmizin hər yerində qaçqın icmalarının müxtəlif yaddaş tədbirləri təşkil etməsi qayıdış hərəkatını fəallaşdırır.

Mədəniyyət Nazirliyinin və Dədə Ələsgər Ocağı İctimai Birliyinin bu yaxınlarda birgə keçirdiyi "Mədəniyyətimizin zənginləşməsində Aşıq Ələsgər amilindən istifadə mexanizmi" elmi konfrans bu baxımdan təsirli və səfərbəredici məclis oldu. Mən də bu toplantıya yaşayıb-çalışdığım Moskva şəhərindən qoşuldum. Bildirdim ki, mədəni irsimizin zənginləşməsi və inkişafına Aşıq Ələsgər fenomeninin təsiri və ondan istifadəsi kimi geniş, maraqlı və böyük əhəmiyyət daşıyan mövzunun müzakirəsi müasir tariximizdə baş verən proseslər üçün xüsusi məna kəsb edir.



Dədə Ələsgər möcüzələrlə dolu yaradıcılığının dərinliyinə, rəngarəng çalarına, poetik dəyərinə görə təkcə Azərbaycanda deyil, Türk, İslam dünyasında, haqlı olaraq, aşıq poeziyasının zirvəsi sayılır, ədəbi-bədii irsimizə ən yüksək estetik meyarlarla yüksək məzmun qazandırmışdır. Təsadüfi deyil ki, Ələsgər poeziyası müdrikliklə, bəşər idrakının kamilliyi ilə çalxalanan dərin, möcüzəli bir ümman olaraq Vətənin müqəddəsliyini, ana dilimizin saflığını, hüdudsuz ifadə imkanlarını özündə ehtiva edir.

Aşıq Ələsgər yaradıcılığı Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınmış, əsərləri dövlət varidatı elan edilmişdir. Aşıq Ələsgər ədəbiyyatımızda yeganə poeziya dühasıdır ki, Azərbaycan klassik və aşıq yaradıcılığının bütün formalarında şeir nümunələri qoyub getmiş, yeni çoxsaylı formalar yaratmışdır.

Keçən əsrin birinci yarısında yaranıb bu günə qədər inkişaf edən, Dədə Ələsgər fenomeninin sirrini-sehrini açmağa yönələn ələsgərşünaslıq Hümmət Əlizadə, Məmmədhüseyn Təhmasib, Həmid Araslı, Əhliman Axundov, Yaşar Qarayev, İslam Ələsgər, Qara Namazov, Hüseyn İsmayılov kimi ədəbiyyatşünasların tədqiqatları ilə zənginləşmişdir. Bu sıraya son vaxtlar Fəxrəddin Salim, Nağdəli Zamanov, Adilə Nəzərova, Salman Balakişiyev kimi araşdırıcıların da qoşulmasına baxmayaraq, hələ də bu əzəmətli xəzinə tükənməz sərvəti ilə yeni tədqiqatlara mövzu olaraq qalır.

Aşıq Ələsgərin anadan olmasının 200 illiyi ilə bağlı yubileyin qeyd edilməsi haqqında Prezident sərəncamının həyata keçirilməsi bütün bölgələrdə ümumxalq bayramına çevrildi. Dədə Ələsgərə Bakıda heykəl qoyulması, adına ozan evi yaradılması, gəmiyə onun adının verilməsi, əsərlərinin akademik nəşrinin hazırlanması kimi məsələlərin gündəmə gəlməsi də bu fenomenin dəyərini və ondan istifadənin gərəkliyini ifadə edir. Bu sahədə "Qərbi Azərbaycan icması"nın, "Dədə Ələsgər ocağı ictimai birliyi"nin və hər birimizin üzərinə ciddi məsuliyyət düşür.

Aşıq Ələsgər şəxsiyyəti və yaradıcılığı Qurani Kərimin, Vətənin, dilimizin, milli adət-ənənələrimizin gözəlliklərini dərindən anlamaq üçün müasir dövrümüzdə də hər birimizin, xüsusilə gənclərimizin zehni, ruhi, mənəvi, əxlaqi tərbiyəsində mühüm rol oynayan amillər kimi daim diqqət mərkəzində olmalıdır. Dədə Ələsgərin müqəddəs ruhu, vergili şəxsiyyəti, hikmətli poeziyası və xalqımızın bu dəyərlərə dərin bağlılığı ölkə Prezidentinin uzaqgörən siyasəti ilə aktuallaşmış Qərbi Azərbaycana Qayıdış hərəkatına mənəvi dəstək qazandırır, soydaşlarımızın itirilmiş dədə-baba yurdlarımıza qovuşacağına dərin inam və əminlik yaradır!

**Ələddin ALLAHVERDİYEV,**
**professor**
**Moskva**

# Köçbək babalarımızın yaylağı olub



**Dünyaya göz açdığım Qərbi Azərbaycanda yerləşən Dərələyəz mahalının Əzizbəyov rayonunun (XX əsrin 50-ci illərinədək Paşalı) Köçbək kəndinin adı türk dilində "düşərgə, çobanların müvəqqəti yaşayış yeri" mənasını ifadə edib.**

Kənddə 1831-ci ildə 25, 1873-cü ildə 226, 1886-cı ildə 312, 1897-ci ildə 417, 1904-cü ildə 425, 1914-cü ildə 470 və 1916-cı ildə 537 nəfər azərbaycanlı yaşayıb. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalıb və yurd erməni faşizmi tərəfindən doğma sakinlərindən təmizlənib. Ermənistanda sovet hökuməti qurulandan sonra isə Köçbək yenidən əzəli sakinlərini qoynuna alıb. Burada 1922-ci ildə 103, 1926-cı ildə 179, 1931-ci ildə 365, 1972-ci ildə 564 nəfər azərbaycanlı yaşayıb.

Dərələyəz mahalı qədim zamanlardan türk-oğuz tayfalarının yaşayış məskəni olub. Köçbək isə dəniz səviyyəsindən 2 metr yüksəklikdə, "Qısır" və Zəngəzur dağlarının ətəyində yerləşib. Kəndin əhatələndiyi dağlar füsunkar gözəlliyi və buz bulaqları ilə bura gələn qonaqları valeh edib.

Əhali, əsasən, maldarlıq, əkinçilik və arıçılıqla məşğul olurdu. Hər bir ailə 10-15 baş iribuynuzlu, 70-100 başdan artıq xırdabuynuzlu heyvan, 30-dan artıq arı ailəsi saxlayırdı. Hər kəsin həyətində bir təndirxanası vardı. Bu təndirlərdə lavaş, fətir və kömbə çörəklər bişirilərdi. Lavaş yapılanda qonşu qadınlar bir-birilərinə kömək edərdilər.

1988-ci ildə Qarabağda erməni faşizmi baş qaldıranda Köçbəkdə müəllim işləyirdim. Bu dövrdə erməni daşnakları tərəfindən kəndimizə davamlı hücumlar edilirdi. Bir qrup əliyalın gənc kəndin girəcəyindən qoca-qarıları, qadınları, uşaqları qorumaq üçün növbə çəkirdi. Bəzən erməni daşnaklarının hücumu zamanı kənd əhalisi qorunmaq üçün dağlara çəkilirdi. Nəhayət, camaat Azərbaycana köçmək məcburiyyətində qaldı və 1988-ci il noyabrın 24-28-də Ermənistan dövlətinin bilavasitə xüsusi göstərişi ilə azərbaycanlıların deportasiyası başa çatdırıldı. Kənddə yaşayan 130 ailə və təqribən, 800 nəfər oğuz türkü doğma od-ocağından qovuldu. Ermənistan prezidentinin 19 aprel 1991-ci il fərmanı ilə Köçbəyin adı dəyişdirilib Hedzor qoyuldu.

Deportasiya olunan soydaşlarımızın böyük əksəriyyəti, əsasən, Şuşa rayonunun Malıbəyli kəndində və digər yaşayış məntəqələrində özlərinə fərdi ev tikərək məskunlaşdılar. Lakin erməni daşnaklarının havadarı Rusiyanın Xankəndidə yerləşən 366-cı alayın silahlı əsgərləri tərəfindən Şuşa, Xocalı və eləcə də Malıbəyli daim atəş altında saxlanılırdı. Nəhayət, 1992-ci il fevral ayının 11-də adıçəkilən alayın köməyi ilə erməni vəhşiləri Malıbəyli kəndini işğal etdilər.

Malıbəyli 35 nəfərədək şəhid verdi. Kəndin əhalisi dağlarla, meşələrlə 2-3 gün yol qət edərək Ağdam şəhərinə gəldi. Camaat Azərbaycanın müxtəlif bölgələrində və Bakı şəhərində məskunlaşdı. Əhali Dərələyəz mahalından qaçqın düşəndən sonra ikinci dəfə məcburi köçkün həyatı yaşamağa məhkum oldu.

Qarabağ torpağı II Qarabağ müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatından sonra azadlığına qovuşdu. Köçbəklilərin öz dədə-baba torpaqlarına qayıtmaq ümidləri artdı.

**Valid MURADOV,**
**Bakı şəhəri 296 nömrəli tam orta məktəbin direktoru**

# AHİK İcraiyyə Komitəsinin iclası

**İyulun 26-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin iclası keçirilib.**



İclasda çıxış edən AHİK sədri, VI çağırış Milli Məclisin deputatı Səttar Möhbalıyev gündəliyə daxil edilən məsələlər barədə məlumat verib.

Sonra gündəliyə çıxarılan məsələlər ətrafında çıxışlar olub, rəy və təkliflər səslənib, müzakirələr aparılıb.

İclasda AHİK-in növbədənkənar qurultayının avqustun 26-da keçirilməsi barədə qərar qəbul olunub, qurumun tərkibində qismən dəyişiklik təsdiqlənib.

Həmçinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı AHİK-in 2023-cü il ərzində gördüyü işlər üzrə arayışın nəzərə alınması barədə qərar qəbul olunub.

**XQ**

"Xalq TV"-nin qonaqları

# "Bir adam yol gedir bizdən qabaqda..."

## Görkəmli şairlə duyğular işığında

Uzun illər Azərbaycan mətbuatında çalışan, qələmə, sözə dəyər verən bu sinədəftər şairimizin səhhəti ilə bağlı yayılan xəbərlər məni də məyus etmişdi. Qızı İntizar xanımla tez-tez əlaqə saxlayırdım. Fürsət düşən kimi ondan müsahibə almağa şərait yaratmasını xahiş etmişdim. Nəhayət, bu imkan yarandı. Ürəyi dolu olan şairlə söhbətimiz elə onun yaşadığı mənzildə baş tutdu.

***– Necəsiniz, Məmməd bəy?***

– Şükür, indi yaxşıyam. İnsanın taleyini bilmək olmur. Birdən-birə ayaqlarım tutuldu. Sağ olsun həkimləri, bacardıqlarını edirlər. Qızım, qocalıq elə bir gəlişdir ki, onun ağrısına da, acısına da dözməlisən. İndiyədək nə yazmışam, nə yaratmışam, hamısı ortalıqdadır. Düşünürəm ki, bunlar məni əbədi olaraq söz dünyasına bağlayıb. İnsanın özündən asılı olmayaraq qocalığa doğru bir ömür yaşayıb, iz qoyması da, mən deyərdim ki, xoşbəxtlikdir.

Təsəvvür edin, atam müharibədə həlak oldu. Anam bir saçını ağ, bir saçını qara hördü. Çabalaya-çabalaya bir Məmməd böyütdü. Yetimlik mənim yol yoldaşım olub. Atamı o qədər arzulamışam, yolunu elə gözləmişəm ki… Bizim kəndə gələn el yoluna baxmaqdan gözlərim qaralırdı. Mənim bir şerim var. Deyirəm: "Yaşaya bilməzdi yetim bu qədər". İllər boyu yaşamaq nədir sualına asfalt yola çıxanda cavab tapırsan və deyirsən ki, deməli, Məmməd də 80 yaşa gəlib çıxa bilərmiş. Atamın yoxluğunu mənə unutdurmağa çalışan, bütün gəncliyini mənə qurban verməyə hazır olan elə bir anam var idi ki, onun varlığını, mənim ömrümə ömür calamağını sözlə ifadə etməyə çətinlik çəkirəm...

**Sözün bu məqamında xatırlatdıq ki, elə ilk kitabının adı da "Ana əlləri" olub. Şairin gözləri doldu. Məmməd İsmayıl ürəklərdə əbədiləşən ana həsrətli duyğularla ağladı. Sonra bir qədər toxtayıb davam elədi:**

– Mənim anam kəndin ən gözəl qadını idi. O, evlənib ailə qura bilərdi, çoxlu övladlar dünyaya gətirərdi… Amma gözümün qabağında ömrünü əridə-əridə qarıya döndü. Mən bu taleyimi heç vaxt unuda bilmərəm. Anam deyirdi: "Yetər ki, sən böyü, Məmməd kimi bu evin, bu qapının dirəyinə dirək bağla". Bu sehrli kəlmələr məni ürəyibütöv böyütdü. Qolumu, qanadımı sınmağa qoymadı. Məni daha da müdrikləşdirdi, Məmməd İsmayıl imzasına yetişdirdi. Şairlə şair, alimlə alim olan Gülzar anamın dahiliyi qarşısında bu gün də sanki imtahan verirəm.

***– Sizcə, söz nədir?***

– Söz məni dəli edəcək qədər gözəl bir hissdir. Şeir yazanda söz fırtına kimi dolur içimə. Söz olmasaydı, Məmməd İsmayıl da olmazdı. Söz mənə Allah payıdır. İlk şerim rayon qəzetində çap olunub. Mənim əvəzimə sanki anam imtahan verirdi. Onun nələr keçirdiyini görmüşəm. Anamın dualları ilə şeirlərim də dil açıb. Gücümə güc qatan, ömrümə ömür qatan bir ananın sevgisi mənə tükənməyən şair ömrünü bəxş etdi. Mən onun qanadları altında kövrək çiyinlərimi zamanla üz-üzə qoydum və qalib çıxdım. Necə yaşamışam, necə yaratmışam, sözümün gücü mənim varlığımı qoruyub saxlayıb – bu suallar bu gün mənim üçün yenə möcüzəli bir həyatın yaşantılarıdır…

Mən 17 yaşlı dəliqanlının şeir dəftərini indi də xatırlayıram. Kəndə gedəndə arzulayıram ki, ağacdələn qapımı döysün. Amma çox təəssüf ki, ağacdələn daha qapımı döymür. Onun döydüyü qapı taxta qapı idi. Günah məndədir ki, taxta qapını dəmir qapı ilə əvəz etmişəm… İnanın, televiziyalar kənddə olarkən hər şeyi olduğu kimi çəkmişdilər, amma elə bir fakt vardı ki, bunu işıqlandırmağın fərqinə belə varmamışdılar. Evimin qapısı ilə üzbəüz bir mazutlu elektrik dirəyi var idi. Bax, həmin dirəkdə ağacdələn yuva qurmuşdu. Ağacdələnlər oradan mənim qapıma baxırdılar. Bir dəfə Sabir Rüstəmxanlı ilə bizə getmişdik. Həmin mənzərəyə baxıb başını tutdu, dedi, belə şey ola bilərmi? Dedim, olsa da, olmasa da, gördüyün həqiqətdir, möcüzədir. Ağacdələnlər o dirəyi 3 yerdən deşib, özlərinə yuva qurmuşdular. Pəncərəmə tərəf baxırdılar. Ağacdələnlər balaları ilə birgə mənimlə üzbəüz yaşayırdılar. Gəlib mənim qapımı döyürdülər. Amma yenə də deyirəm, o vaxt mənim qapım taxtadan idi. Sonra o evi söküb, başqa bir ev tikdim. Dəmir qapıya daha ağacdələn gəlmədi.



**XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri də söz ustadı şair, publisist Məmməd İsmayıldır. Danılmaz istedadı, cəsarətli sözü ilə çağdaş Azərbaycan ədəbiyyatının ustad nümayəndələrindən biri sayılan şairin şeirləri onillərdən bəridir ki, bədii zövqümüzü formalaşdırır, mənəvi dünyamızı zənginləşdirir. Onun ana dilimizin şəhdinə-şirəsinə bələnmiş misralarını, bəndlərini çoxumuz əzbər bilirik. Poeziyasından söz düşəndə qələmdaşları şairin öz dilindən aldıqları bir misranı ürəklə misal gətirirlər: "Bir adam yol gedir bizdən qabaqda..."**

**Dilimizdə "Ana əlləri", "Dünyaya baxıram", "Axşamlar, səhərlər", "Söz vaxtına çəkər", "Qoymayın dünyanı adiləşməyə", "Baxtıma düşən gün", "Hələ yaşamağa dəyər", "Döyüş, qələbə", "Dünya bizim evimizdir", "Aman təklik əlindən", "Ümiddən asılan qılınclar", "Yaş altmışa dayandı", "Yoxun varlığı", "Poemalar", "Yetmişdən sonra", "Gəlməyə vaxtmı tapdın, səksən yaşım", "Arzuların yolu" kimi 30-a qədər, rus, alman, fransız, yapon, macar, qazax və başqa dillərdə 20-yə yaxın şeir kitabının müəllifidir. "Söz vaxtına çəkər" və Moskvada çap olunmuş "Zyorna speloqo qranata" kitablarına görə Respublika Komsomolu mükafatına, "Yerlə göy arasında" kitabına görə Ostrovski adına Ümumittifaq mükafata layiq görülüb.**

**Məmməd İsmayıl 1939-cu ildə Azərbaycanın Tovuz rayonunda dünyaya gəlib. 1957-ci ildə orta məktəbi, 1964-cü ildə Azərbaycan Dövlət Universitetini, 1975-ci ildə Moskvada SSRİ Yazıçılar İttifaqı nəzdindəki ikiillik Ali Ədəbiyyat kursunu bitirib. 1998-ci ildə filologiya elmləri namizədi, 2013-cü ildə Türkiyənin Çanaqqala, On səkkiz Mart Universitetində professor dərəcəsini alıb. Şair Azərbaycan Yazıçılar Birliyinin katibi, dəfələrlə idarə və rəyasət heyətlərinin üzvü olub. Fransa Elm, Sənət və Ədəbiyyat və Ukrayna Ali Təhsil akademiyalarına həqiqi üzv seçilib. Bir çox xarici ölkənin ədəbiyyat ensiklopediyalarında ədəbi fəaliyyəti ilə bağlı məqalələri nəşr edilib, həyat və yaradıcılığı haqqında (Azərbaycanda və Türkiyədə) yüksək lisans və doktorluq dissertasiyası yazılıb. Dünyanın 30-dan çox ölkəsində keçirilən konfrans və şeir festivallarında türk və Azərbaycan ədəbiyyatlarını layiqincə təmsil edib. İtaliyada və Rumıniyada yayımlanan "Dünya Şeir Antologiyası"nda Azərbaycan şeiri onun əsərləri ilə təmsil olunub.**

**Ömrünün 30 ilini qardaş Türkiyədə yaşayıb-yaratmış görkəmli şairimizin özünəməxsus ədəbi və publisistik nümunələri ünlü nəşriyyatların buraxdığı 15 kitabda türk dilində işıq üzü görüb. "Bu qan yerdə qalan deyil", "Türkün sevgisi", "Dillən, telli sazım", "Unutduğun yerdəyəm", "Yelə bir şey söyləmişdim", "İz" və digər kitablar bu sıradandır.**

**Bu sətirlərin müəllifi də bir zaman Məmməd İsmayılın rəhbərlik etdiyi dövlət televiziyasında çalışıb və şairi dəyərli məmur kimi də tanıyıb. Hansısa müəllifin zəif teleproqramı olanda birbaşa sual edirdi: "Sənin nə haqqın var ki, tamaşaçının ömrünün 1 saatını zəif verilişinlə məşğul edib onun əlindən alasan?" Yaxşı verilişləri isə Məmməd müəllim ürəkdən təqdir edirdi. Xalq yaradıcılığına, ədəbiyyata aid proqramlara qarşı daha tələbkar idi. İstəyirdi ki, verilişlər sadəliyi, orijinallığı ilə seçilsin, yadda qalsın...**

**Məmməd İsmayıl hazırda Azərbaycandadır, sağlıq durumu ilə bağlı müalicə alır. Şairin bu qayğılarını Heydər Əliyev Fondu tamamilə öz üzərinə götürüb. Redaksiyamızın tapşırığı ilə bugünlərdə şairə baş çəkərək ondan "XalqTV" üçün müsahibə aldıq. Həmin söhbəti təqdim edirik.**

***– Məmməd bəy, söz taxta qapı ilə dəmir qapı arasında qalanda siz hansı tərəfə doğru gedərdiniz?***

– Taxta qapıya tərəf gedərdim. Mən Tovuzun Əsrik-Cırdaxan adlı uzaq bir dağ kəndindənəm. Səmimi deyirəm, yoxsul bir daxmadan çıxmış adamam, taxta qapını seçərdim. Mən sözün quluyam. Gerçək budur. Bu anlamda deyirdim: "könlüm söz mülkündə elə ağacdır ki, meyvəsi sinəmdə, kökü sinəmdə." Həqiqətin qapısı taxta qapının sehrindədir. Ona görə də imkanım olsaydı, ağacdələnin həyatını filmlərə çəkərdim. "Ağacdələn, döy qapımı" şerim bu möcüzənin etirafıdır. Ağacdələnlərlə beləcə çox söhbət etmişəm. Söz dünyasına ağacdələnlərin ismarıcını çatdırmışam.

Çox təəssüf ki, bu gün söz öz hökmranlığını itirib. Söz böyük müharibələrlə, ədalətsiz dünya arasında əlacsız qalıb. Nə yazıq ki, hiyləgər dünya elə bir silahlar çıxardı ki, sözün sürətinin qarşısını aldı. Biz belə bir zamanda yaşayırıq. Amma, nə olur-olsun, sözün bu dünyada ayrıca bir anlamı, yeri var. Füzuli dədəmiz demiş: "Söz yoxdan var olmaqdır!". Söz ən qanlı müharibələri bitirəcək bir gücə malikdir.

***– Moskvadakı təhsil illəriniz, həmin mühit sizə nə verib? Söz dünyasında qazancınız nə oldu?***

– İndiyə qədər bu sualı heç kim verməyib mənə. Amma mən bu sualı çox gözləmişəm. Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun nəzdində yüksək ali ədəbiyyat kursları var idi. Etiraf edim ki, Moskva mühiti bugünkü Məmməd İsmayılın yetişməsində çox böyük rol oynayıb. Nə yaxşı ki, Allah mənə o imkanı verdi, 2 il orada yaşaya bildim. Mən Moskvaya gedəndə bir başqa cür Məmməd İsmayıl idim, qayıdanda isə tamam başqa cür Məmməd İsmayıl oldum. Səbəbi nə idi? Çünki Bakıda sovet rejiminin gücündən hər şey yasaq olanda Moskvada estetika müəllimimiz Kremlin qulağının dibində bağıra-bağıra Sovet rejiminin yalanlarını bizə diktə edirdi. Sovetlər Birliyinin dağılmasında Moskva ədəbi mühitinin rolu əvəzsizdir. Bax, mən o məktəbdən böyük, mənəvi gücümü almışam. Müəllimimiz bizə deyirdi ki, niyə qorxa-qorxa mənə baxırsınız, məgər mən yalan deyirəm? Söz cəbhəsində formalaşmağım həmin illərdən başladı. Daha doğrusu, sözümü deyəndə qorxmadım, çəkinmədim. Bu mühiti yaradan Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun söz nəhəngləri idi. "Leninsiz bir Leninizm" kəlamlarını mən o müəllimlərdən öyrənmişəm. O insanlar bizə cəsarətlə yazmağı öyrədib. Şair sözünün sahibi olmasa, cəmiyyət ona inanmayacaq. Məmməd İsmayılı yetişdirən mühit Moskva ədəbi mühitidir. O təlatümlər dövrü mənə cəsarət verdi.

Tale elə gətirdi ki, mən dövlətin etibarı sayəsində məmur vəzifəsinə irəli çəkildim. Çoxları elə fikirləşdi ki, mən həqiqəti deməkdən çəkinəcəyəm. Amma fikirləşdim ki, ay Məmməd, sən niyə dəyişməlisən ki? Allah sənə bu imkanı verib. Sən yetim oğlansan. "İşıq" nəşriyyatının direktoru, Azərbaycan və rus dillərində çap olunan "Gənclik" və "Molodost" jurnallarının baş redaktoru, eləcə də AzTV-nin sədri kimi yüksək vəzifələr daşıyırsansa, bu, Allahın sənə mükafatıdır. Ona görə də Məmməd İsmayıl olaraq xalqına xidmət etməlisən! Olduğun kimi varlığını sübut etməlisən. Allahın verdiyi imkanlardan dövlətin və xalqın naminə yararlanmalısan ki, sona qədər peşman olmayasan.

Çox xoşbəxtəm ki, şərəfli bir ömrə imzamı qoydum. Mənə etimad göstərilən məmur vəzifələrində həqiqətin arxasında duran Məmməd İsmayıl oldum. "Gənclik" jurnalını övladlarım qədər sevmişəm. Sovet rejimində cəsarətlə bu jurnalda elə yazılar verirdim ki, jurnalın hər nömrəsi əl-əl gəzirdi. Çünki hər səhifəsi xalqın, millətin nəfəsindən yoğrulurdu. 300 min tirajla nəşr olunan jurnalı köşklərdən tapmaq mümkün deyildi.

Bu gün ömrümün belə bir çağında o illərə nəzər salanda qürur hissi keçirirəm ki, Məmməd, sən sözün qüdrətini yaşatmağı bacarmısan. Sözünün, hər sətrinin altından xətt çəkmisən. Məmməd İsmayıl imzasını yaşatmısan. İçimdə bir hiss var idi ki, Azərbaycanda birisi bunu etməlidir. Yəqin ki, Allah-Təala bunu mənə bəxş edibdir. İnanın ki, mənə hər cür zərbənin də qarşısını Tanrı özü alırdı. Doğrudan da, insan taleyi bir möcüzədir. Mən belə bir ömrün Məmməd İsmayılıyam. Yetim Məmməd İsmayıldan məmur Məmməd İsmayıla qədər böyük bir yol keçmişəm. Amma əqidəmə, cəsarətimə sadiq qalmışam. Gülzar anamın qabarlı əlləri məni həyatın bütün sərtliklərinə dözməyi öyrətmişdi.

Ey mənim taleyim, sən məni haralardan-haralara gətirib çıxardın? Səndən indi çox narazıyam. Qocalıq, üstəlik də xəstəlik imkan vermir ki, ürəyimdəkiləri qələmə ala bilim.

***– Çox düzgün dediniz, Azərbaycan tarixin ən qürurlu günlərini yaşayır. 30 ilə yaxın işğal altında olan Qarabağ torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi. Belə bir Müzəffər Ordumuz üçün yazıb-yaratmaq qələm əhlinin üzərinə düşən ən böyük vəzifədir desəm, yəqin ki, mənimlə razılaşarsınız. Bu mənada nə yazmaq istərdiniz?***

– Qızım, mən yazmayıb da, kim yazmalıdır? Axı mən bu Vətənin şair övladıyam. Tarixin belə qürurlu anlarını yaşamaq hər millətə, hər xalqa qismət olmur. Misilsiz bir qələbəyə imza atmışıq. Yeri-yurdu olmayan erməni daşnakları axır ki, layiq olduqları cavabı aldılar. Biz haqlı mübarizəmizdə tarixi torpaqlarımızı geri aldıq. Bir xalq olaraq, sübut elədik ki, övladlarımızı gözüqıpıq böyütməmişik. 44 günlük döyüş Azərbaycan gənclərinin necə qorxmaz, qəhrəman olduğunu cahana sübut etdi.

Mən Tovuzda böyüdüyümə görə həmişə o torpaqların qədir-qiymətini daha çox dərk etmişəm. Çünki biz tarixi İrəvan torpaqları ilə, Göyçəmizlə həmsərhəd olmuşuq. O torpaqlar bizim ata-baba yurdumuzdur. Böyük Türk dünyasının bir ucu Kıprısdan başlayıb, Altaylarda qurtarır. Mən bu böyüklüyü – Türkün qüdrətini necə vəsf etməyim?! İlham Əliyev edilə bilməyəcəkləri edə bildi. İlham Əliyev özünün gücünə inandı. Onun qarşısına kimsə çıxa bilmədi. İlham Əliyev Türkün gücünü bütün dünyaya göstərdi!

Bəli, elə bir gün gəldi ki, ölkənin başçısı da cavan oldu, Müzəffər Ordumuzda döyüşənlər də gənclər oldular. Dünya hərb tarixinə yeni bir dönəm yazıldı. Qarabağın Azərbaycan torpaqları olması tarixi və hüquqi qiymətini aldı. Sevincim sonsuzdur. Çox təəssüf ki, hazırda xəstə olduğuma görə səhhətim qələmimə də xəyanət edib məni yazmağa qoymur. Hərdən bu barədə fikirləşəndə xəstəliyə üsyan qaldırmaq istəyirəm. Ona görə də bu günlər öz-özümü çox qınayıram. Axı mən illər boyu bu qələbənin həsrətində olmuşam. Ona görə də sağalan kimi mütləq Zəfərimizi tərənnüm edən böyük bir əsər yazacağam.

***– İnşallah! İnanırıq ki, hələ çox illər yazıb-yaradacaq, Vətəni tərənnüm edəcək, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə, mənəvi ucalığına bədii töhfələr verəcəksiniz.***

– Çox sağ olun ki, bu ağır xəstə günlərimdə ruhuma yenidən can verdiniz. Mənə dəyər verdiniz. Etiraf edirəm ki, "Xalq qəzeti"nin və "XalqTV"-nin bu gün bura gəlməyi mənə çox böyük ruh yüksəkliyi bəxş etdi. Sizə bir kollektiv olaraq böyük yaradıcılıq uğurları arzulayıram. Hər zaman xalqın içində "Xalq qəzeti" kimi var olasınız!

**Kəmalə ABDİNOVA**
**XQ**

# "Açıq kitabxana"

**Azərbaycan Milli Kitabxanasının nəzdində fəaliyyət göstərən "Açıq kitabxana"ya dahi şairimiz Nizami Gəncəvinin məşhur misralarını xatırlaya-xatırlaya daxil oldum:**

**Dünyada nə qədər**
**kitab var belə,**
**Çalışıb, əlləşib gətirdim ələ.**
**Oxudum, oxudum,**
**sonra da vardım,**
**Hər gizli xəznədən**
**bir dürr çıxardım...**

Kitabxananın işıqlı guşələrinə nəzər saldıqca deyilənlərin həqiqətinə bir daha vardım. Qəribə, xoş bir aura idi. Kitab aləminin işığı elə bil sifətlərə çökmüşdü. Kitablar oxucuların simasında yeni bir doğmalıq hücrəsi, oxucularsa burada çalışan insanları özlərinə yeni dost, sirdaş tapmışdı elə bil...

"Açıq kitabxana" 2016-cı ilin iyul ayında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Milli Kitabxanasının birgə layihəsi əsasında yaradılıb. Fasiləsiz və sərbəst mütaliə imkanları məqsədinə xidmət edən kitabxana 24 saat fəaliyyət göstərir.

Bizimlə söhbətində "Açıq kitabxana – sərbəst mütaliə" bölməsinin müdiri Lalə Salahova qeyd etdi ki, kitabxana bütün yaş kateqoriyalarından olan oxucular üçün açıqdır və heç bir məhdudiyyət yoxdur.

– Burada "Uşaq guşəsi", "Mən oxudum, sən də oxu", "Dövri mətbuat" və "Milli musiqi" guşələri fəaliyyət göstərir. "Uşaq guşəsi"nə məktəbəqədər və məktəbyaşlı uşaqlar öz valideynləri ilə birgə gəlir, kitablar və jurnallar, milli nəşriyyatların çap etdiyi, eləcə də oxucular və müəlliflər tərəfindən Milli Kitabxanaya hədiyyə olunan əsərlərlə tanış olurlar. Yerli və xarici müəlliflərin sehrli nağılları, müxtəlif süjetli hekayələr, "Hökmdarlar və sərkərdələr", "Prezidentlər və dövlət xadimləri", "Tarixi şəxsiyyətlər" və s. seriyalarla çap olunmuş silsilə kitablar kiçik yaşlı oxucularımızın marağına səbəb olur.

Kitabxanada "Mən oxudum, sən də oxu" devizi altında "Kitabı kitaba dəyişmə" guşəsi də fəaliyyət göstərir. Burada həm ictimai-siyasi məzmunlu ədəbiyyat, həm milli ədəbi nümunələr, həm də dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri toplanıb. "Kitabı kitaba dəyişmə" guşəsi vasitəsilə hər bir vətəndaş özünə məxsus olan kitabı təhvil verməklə oxumadığı yeni bir kitab əldə edə bilir. Mübadilə nəşrləri kitabxananın sosial şəbəkə hesabında annotasiya ilə oxuculara təqdim olunur.

"Dövri mətbuat guşəsi"ndə oxucular üçün maraqlı jurnallar və qəzetlər toplanmışdır. Burada "Azərbaycan", "Azərbaycan xalçası", "Yada düşdü", "İrs", "Yazı" ədəbiyyat dərgisi, "Ulduz", "Mədəniyyət", "Baku", "Port Baku", "Forbes.Life" jurnallarının və bir sıra qəzetlərin yeni nömrələri müntəzəm olaraq təqdim edilir. "Milli musiqi guşəsi"ndə isə Azərbaycan bəstəkarlarının əsərləri, musiqi ədəbiyyatı və jurnallar toplanıb.



Lalə Salahova həmçinin qeyd etdi ki, kitabxanada mütaliə axşamları, ayrı-ayrı yazıçı və şairlərlə görüşlər keçirilir, onların yeni kitablarının təqdimat mərasimləri, "İmza günləri" təşkil olunur. Məlum oldu ki, bir neçə gün öncə "Açıq kitabxana"da Milli Kitabxananın və "Azərbaycan gənclərinin inkişaf hərəkatı" ictimai birliyinin nəzdində fəaliyyət göstərən Kitab klubunun təşkilatçılığı ilə "Kitabın sirri" layihəsi çərçivəsində istedadlı gənc yazıçı Elvin İlqaroğlunun "Sən qəribə adamsan" kitabının təqdimatı keçirilib. Bundan başqa, yazıçı-dramaturq, "Qobustan" dərgisinin baş redaktoru Pərvin Nurəliyeva ilə görüşü və Eldar Hüseynovun "Ruhumun çağırışları" kitabının təqdimatını da qeyd edə bilərik.

**Çağdaş dövrdə cəmiyyətdə belə bir fikir formalaşıb ki, gənclərin mütaliəyə marağı azalıb. Amma Lalə Salahova bu fikirlə razılaşmır:**

– Gənclərin mütaliə marağı çox yüksəkdir, – deyə o bildirdi. – Yay fəsli olduğu üçün vətəndaşların rayonlara üz tutması səbəbindən bu gün oxucu sayında azalma müşahidə oluna bilər. Bununla belə, "Açıq kitabxana" geniş oxucu kütləsinə sahibdir. Hava şəraitindən asılı olmayaraq çoxsaylı oxucularla rastlaşa bilərsiniz.

**Həqiqətən də elə idi. Oxucuların iki-bir, üç-bir, ya da tək-tək buraya gəldiyinin şahidi olduq.**

**Aynur HİLALİ**

# Vaşinqton Yeni-Dehlini sanksiyalarla hədələyir

## ABŞ Hindistan–Rusiya əlaqələrinin genişlənməsinə qarşıdır

**ABŞ Maliyyə Nazirliyi Hindistan banklarına xəbərdarlıq edir ki, Vaşinqton Rusiya müdafiə sənayesi ilə məşğul olduqlarına görə onlara qarşı sanksiyalar tətbiq edə bilər. Hindistan Banklar Assosiasiyasına göndərilən müraciətdə bildirilir ki, ABŞ-nin maliyyə departamenti Yeni-Dehliyə Rusiya ilə hərbi-texniki əməkdaşlıq çərçivəsində əməliyyatlar həyata keçirən Hindistan banklarını ABŞ sanksiyaları təhlükəsindən uzaqlaşdırmaq üçün 30 gün vaxt verir. Hindistan banklarının ABŞ-nin maliyyə sisteminə çıxışını itirmək riski ilə bağlı xəbərdarlıq bu ölkənin baş naziri Narendra Modinin Moskvaya səfərindən sonra atılan ilk belə addımdır və buna cavab olaraq ABŞ Rusiya-Hindistan tərəfdaşlığına qarşı çıxacaqlarını vəd edirlər.**



Çərşənbə günü sənədin mətnini əldə edən "Reuters" agentliyi ABŞ maliyyə nazirinin müavini Uolli Adeyemo tərəfindən Hindistan Banklar Assosiasiyasının rəhbərliyinə göndərilmiş məktubu dərc edib. ABŞ Maliyyə Nazirliyinin bəyanatında deyilir ki, Vaşinqton Rusiya ordusunun kritik məhsulların, o cümlədən dəzgahların və mikroelektronikanın idxalına arxalandığı və onların bu əməliyyatlarla görə dəstək almaq üçün xarici maliyyə institutlarına müraciət etdiklərini bilir. Bununla əlaqədar olaraq, departament assosiasiyanı Hindistan banklarını ABŞ sanksiyalarının tətbiqinin mümkünlüyü barədə məlumatlandırmağa çağırır. Hindistan bankları bu xəbərdarlığa məhəl qoymasalar, o zaman sənəddən göründüyü kimi, Amerikada əməliyyat apara bilməyəcəklər. "Rusiyanın müdafiə sənayesi ilə məşğul olan hər hansı xarici maliyyə qurumu sanksiyalara məruz qala bilər və ABŞ-nin maliyyə sisteminə və ehtimal ki, digər maliyyə sistemlərinə çıxışını itirə bilər", – cənab Adeyemo xəbərdarlıq edir.

ABŞ Xəzinədarlığından gələn məktubda Hindistan banklarına qarşı konkret şikayətlər yoxdur, ancaq Vaşinqtonun fikrincə, Amerikanın tərəfdaş ölkələrinin Rusiyanı "maddi və maliyyə alətlərindən" məhrum etmək üçün necə davranmalı olduğuna dair ümumi təlimatlar var. Bununla belə, Vaşinqtondan gələn xəbərdarlığın çox sərt və ultimatum kimi görünməməsi üçün məktubda Uolli Adeyemo bildirir ki, Birləşmiş Ştatlar Hindistanı aparıcı ticarət tərəfdaşlarından biri hesab edərək, onunla iqtisadi əməkdaşlığı inkişaf etdirməyə çalışır. Yeni-Dehli ilə işgüzar qarşılıqlı əlaqələrin vacibliyini vurğulayan ABŞ maliyyə nazirinin müavini son on ildə iki ölkə arasında ticarətin 110 faiz artdığını xatırladır.

Rusiya KİV-i yazır ki, Amerika Maliyyə Departamentinin Dehliyə göndərdiyi məktub ABŞ Prezidenti Co Baydenin ötən ilin dekabrında imzaladığı və Rusiyaya qarşı sanksiyaları sərtləşdirmək üçün nəzərdə tutulmuş fərmana əsaslanır. Ağ ev rəhbərinin Hindistan və digər ölkələri birbaşa qeyd etməyən sərəncamı Rusiya müdafiə sənayesinin maraqları naminə əməliyyatlar həyata keçirən üçüncü ölkələrin maliyyə institutlarına qarşı məhdudiyyətlərin tətbiqi imkanını nəzərdə tutur.

Bu, ilk dəfə deyil ki, Vaşinqton açıq şəkildə Yeni-Dehliyə Rusiya ilə əlaqələrinə görə narazılığını bildirir. Oxşar narazılıq Hindistanın baş naziri Narendra Modinin iyulun 8-9-da Moskvada olduğu və Rusiya Prezidenti Vladimir Putinlə görüşdüyü zaman da səsləndirilmişdi. ABŞ dövlət katibinin müavini Kurt Kempbellin o zaman demişdi ki, Hindistanın Rusiya ilə əlaqələri ABŞ–Hindistan texnoloji əməkdaşlığına mane olur. Amerikalı diplomatın sözlərinə görə, o, ABŞ-nin milli təhlükəsizlik müşaviri Ceyk Sullivanla birlikdə ölkəyə son səfəri zamanı Dehlidəki rəsmilər ilə, ilk növbədə, texnoloji və hərbi məsələləri müzakirə etmişdi.

Bununla belə, bəzi mütəxəssislər Hindistan banklarına qarşı tammiqyaslı cəza tədbirlərinin tətbiqi ehtimalına şübhə ilə yanaşırlar. Mütəxəssislərin fikrincə, bu, böyük ölçüdə Vaşinqtonun psixoloji təzyiq elementidir və ABŞ Hindistanı Çinin regionda təsir dairəsinin genişlənməsinə qarşı balanslaşdırılmış güc kimi nəzərdən keçirir. Buna görə də, total sanksiyaların tətbiqi Vaşinqton üçün bumeranq effekti verə bilər. Ancaq istənilən halda bundan sonra Hindistan bankları addımlarında daha ehtiyatlı davranmağa məcbur olacaqlar.

**S.ELAY**
**XQ**

# Obamalardan Kamala Harrisə dəstək mesajı



**ABŞ-nin sabiq dövlət başçısı Barak Obama və onun həyat yoldaşı Mişel noyabrın 5-də keçiriləcək prezident seçkilərində Kamala Harrisin namizədliyini dəstəkləyiblər. Bu barədə ABŞ mediası məlumat yayıb. Məlumatda Barak və Mişel Obamaların siyasi mövqelərini özlərinin sosial media hesablarında da bildirdikləri qeyd olunur.**

Amerikanın sabiq prezidenti Barak Obama şəxsi səhifəsində belə yazıb: "Mişel və mən dostumuz Kamala Harrisə zəng edərək, onun çox yaxşı prezident olacağını və Kamalanı bu yolda tam dəstəklədiyimizi dedik. Seçkilərdə onun qalib gəlməsi üçün əlimizdən gələni edəcəyik".

Mişel Obama isə öz növbəsində insanlara bəxş etdiyi gözəl əhval-ruhiyyə, yumor hissi və ümid vermək bacarığına görə Kamala Harrisin Demokratlar partiyasından dövlət başçısı postuna namizədliyini dəstəklədiyini vurğulayıb.

Xatırladaq ki, iyulun 21-də ABŞ-nin hazırkı Prezidenti Cozef Bayden dövlət başçısı postuna yenidən seçilmək istəmədiyini elan edib və vitse-prezident Kamala Harrisin namizədliyini dəstəklədiyini bildirib.

**S.FİDAN**
**XQ**

**Yeni texnologiyalar**

# Karbon qazından yağ alındı

**Karbon qazı və sudan süni yolla yağ alınıb. Bu, elmi fantastika və ya zarafat kimi görünə bilər, lakin amerikalı sahibkar və milyarder Bill Qeyts $CO_2$-dən kərə yağı almaq üçün iddialı bir layihəyə sərmayə qoyub.**



Hazırda müxtəlif biokimyəvi texnologiyalardan istifadə edilməklə havadan alınan karbon dioksiddən, eləcə də sudan çıxarılan hidrogendən yağların hazırlanması texnologiyası üzərində iş gedir. Bu texnologiyaya görə, termokimyəvi proses vasitəsilə atmosferdən alınan su və $CO_2$ yağ turşularına, sonra isə yağa çevriləcək. Maraqlıdır ki, kərə yağı istehsalı prosesində heyvan, bitki və ya kənd təsərrüfatı torpaqlarından istifadə edilməyəcək.

Bu ideyanın təşəbbüskarı "Orca Sciences"ın himayəsi altında fəaliyyət göstərən və milyarder Bill Qeytsdən sərmayə alan "Savor" şirkətidir. Şirkətdən bildiriblər ki, yeni layihənin məqsədi istixana qazı emissiyalarını azaltmaq və alternativ qida məhsullarının istehsalını təşkil etməkdir.

Bill Qeytsin sözlərinə görə, süni yağın istehsalı prosesində daha az sudan istifadə ediləcək. O bildirib ki, yeni məhsul əsl yağ kimi dadlıdır. Onun molekulyar quruluşu ənənəvi yağ variantları ilə demək olar ki, eynidir, lakin tərkibində qatışıqların olmaması səbəbindən daha təmizdir. Gələcəkdə süni yağların əsasında kəsmik, dondurma, pendir və s. ağartı məhsullarının istehsalı da təşkil ediləcək.

Hazırkı mərhələdə xərcləri azaltmaq və qiymətlərin əlçatanlığını artırmaq üçün bu məhsulun istehsalının genişləndirilməsi məsələsini həll etmək qalır. Şirkətin nümayəndələri gələcəkdə dünyada ən çox istehlak edilən palma yağı problemini həll etməyə çalışdıqlarını da bildiriblər.

Bundan əlavə, elm adamları belə qidaların fotosintezdən asılı olmadığını hesab edirlər və buna görə də istənilən miqyasda qida maddələrinin sintezi təbii ekosistemlərin torpaqdan, kənd təsərrüfatı məhsullarından asılılığını azaldacaq. Bu, eyni zamanda, kənd təsərrüfatı ilə bağlı bir çox ekoloji xərclərin qarşısını alacaq.

Sonda vurğulayaq ki, yuxarıda qeyd etdiyimiz üsulla bütün üzvi birləşmələrin əsasını təşkil edən karbon və hidrogen yeni məhsulların yaradılması üçün geniş imkanlar açacaq.

**PÜNHAN**
**XQ**

# Müxalifət seçkilərdə qalib gəlsə...

## *Gürcüstan "ikinci cəbhə"yə çevriləcək*

**2024-cü ilin payızında keçiriləcək parlament seçkilərində müxalifətdəki "Vahid Milli Hərəkat"ın qələbəsi Gürcüstanı bir neçə gündən sonra "ikinci cəbhə"yə çevirəcək. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib.**

O, aparıcı müxalifət partiyalarını və onların tərəfdarlarını "radikal müxalifət" adlandırıb. İ.Kobaxidzenin sözlərinə görə, müxalifət Gürcüstanda vəziyyəti gərginləşdirməklə, inqilab təşkil etməklə hakimiyyət dəyişikliyinə çalışır. Bu isə ölkəni müharibəyə sürükləyəcək: "Nəzəri olaraq, "Vahid Milli Hərəkat"ın seçkilərdən sonra hakimiyyətə gələcəyini təsəvvür etsək, mən sizə zəmanət verirəm ki, bir neçə aydan sonra deyil, bir neçə gündən sonra Gürcüstan "ikinci cəbhə"yə çevriləcək".

Baş nazir qeyd edib ki, o, əlində olan məlumatlara əsaslanaraq buna zəmanət verir, bu barədə isə ictimaiyyətə danışa bilməz: "Təəssüf ki, ictimaiyyət məlumatların çox azını bilir. Biz müəyyən məlumatları açıq şəkildə paylaşmırıq. Hazırkı reallığa, münasibətlərə diqqət yetirmək hələ də vacibdir. Bu səbəbdən müəyyən məlumatları, o cümlədən bəzi görüşlər barədə açıqlama vermirik".

İ. Kobaxidze ölkədə proseslərin analoji şəkildə inkişaf etməyəcəyinə əmindir: "Oktyabrın 26-da keçiriləcək seçkilər müharibə ilə sülh, liberal faşizmlə ənənəvi dəyərlər, Gürcüstanın qaranlıq keçmişi ilə ölkənin parlaq, Avropa gələcəyi arasında bir növ referendum olacaq. Biz əminik ki, "Gürcü arzusu" seçicilərin, təxminən, 60 faizinin dəstəyini qazanacaq. Bu səbəbdən də müxalifətin seçkilərdə qalib gəlmək şansı yoxdur. Çünki gürcü xalqı, ilk növbədə, ölkənin maraqlarını müdafiə etməyə sadiqdir".

Baş nazir ABŞ Konqresinin Gürcüstan hakimiyyətini "xarici agentlər" haqqında qanunun qəbuluna görə tənqidinə də münasibət bildirib: "Konqresdə belə bir qiymətləndirmə Gürcüstanla bağlı praqmatik mövqenin hələ formalaşmadığını göstərir. Biz Gürcüstan dövlətinə qarşı ədalətsiz hücumlar gördük. Konqresdə səslənən tənqidlərin heç bir əsası yoxdur. Amerikalı tərəfdaşlarımıza fərqli gündəm təklif etmək istəyirik, bu, sıfırlama deməkdir. Bunun fonunda gürcü-amerikan münasibətləri yenidən qurulmalıdır".

Kobaxidzenin fikrincə, münasibətləri bərpa etmək üçün, ilk növbədə, ədalətli yanaşma lazımdır. Gürcüstan bunun üçün lazım olan maksimum sayda addımı atacaq. Əsas odur ki, ABŞ hakimiyyətinin nümayəndələri də belə addımlar atsınlar. Onun sözlərinə görə, Avropa İttifaqı (Aİ) da yaxın gələcəkdə Gürcüstanın bu quruma üzvlüyü ilə bağlı danışıqlardan imtina etməyəcək.

Hazırda Gürcüstan Aİ-yə üzv olmağa namizəd ölkədir. Ölkə bu statusu 2023-cü ilin dekabrında, Ukrayna və Moldovadan bir il sonra alıb. Gürcüstana həmçinin Aİ-yə daxil olmaq üzrə danışıqlar mərhələsinə keçmək üçün 9 şərt verilib. Onların arasında qütbləşmənin aradan qaldırılması, oliqarxsızlaşma, azad və rəqabətli seçkilərin təmin edilməsi və s. var. "Bu, gürcü xalqı ilə bağlı verilən qərardır, yəni, gürcü xalqına namizəd statusu veriblər. Mən əminəm ki, onlar danışıqlara başlamaqdan imtina etməyəcəklər. Əgər başqa cür olarsa, o zaman məlum olur ki, gürcü xalqına qarşı yanlış münasibət var. Məsələn, Moldova siyasi və media plüralizmi sıfır olan MDB üzvüdür. Demokratiya, korrupsiya baxımından ciddi problemləri var. Belə bir vəziyyətdə Moldova ilə danışıqlar davam edir. Amma bizimlə yox, bu, böyük ədalətsizlikdir", – Kobaxidze bildirib.



Onun sözlərinə görə, belə ədalətsizliyi Aİ və Gürcüstanın fərqli maraqları ilə izah etmək olar. "Maraqlar dəyişən kimi, Gürcüstana yanaşma da dəyişəcək və danışıqlar açılacaq". Gürcüstanın Baş naziri əmin olduğunu bildirib ki, 2030-cu ilə qədər namizəd ölkələr arasında Gürcüstan Aİ-yə inteqrasiyaya ən yaxşı şəkildə hazır olacaq və bu istiqamətdə addımlar atmağa davam edəcək.

İ.Kobaxidze daha sonra bildirib ki, Aİ və ABŞ-nin özünün oliqarxsızlaşmaya ehtiyacı var. Eyni zamanda, baş nazir qeyd edib ki, Gürcüstan hakimiyyəti son iki-üç il ərzində Qərb tərəfdaşlarının – Avropa və Amerika institutlarının gürcü xalqının gözündə müsbət imicini qorumaq üçün mümkün olan hər şeyi edib.

Xatırladaq ki, Gürcüstanın Aİ ilə münasibətləri 2024-cü ilin yayından pisləşməyə başlayıb. İyulun 9-da Aİ səfiri Pavel Qerçinski bəyan edib ki, Aİ liderləri Gürcüstan Müdafiə Nazirliyi üçün ayrılan pulu verməyəcək. Üstəlik, hökumətə birbaşa maliyyə dəstəyini azaldacaq. Həmin vəsait isə QHT və mediaya yönəldiləcək. O, bu qərarı Gürcüstanda "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbulu və anti-Qərb ritorikası ilə izah edib. Bundan əlavə, Aİ Gürcüstanın birliyə qoşulması prosesini dayandırmaq qərarına gəlib.

Bu arada Gürcüstanla bağlı daha bir xəbər mətbuatın marağına səbəb olub. Məlumatda bildirilir ki, "Gürcü Arzusu" partiyasının qurucusu Bidzina İvanişvilinin prezidentliyə namizədliyi irəli sürülə bilər. Bunu jurnalistlərə açıqlamasında ədliyyə naziri Rati Breqadze deyib. "Əgər İvanişvili prezidentliyə namizədliyini irəli sürməyə qərar verərsə, əminəm ki, o, Gürcüstan tarixində ən yaxşı prezident olacaq".

Qeyd edək ki, parlamentar respublika olan Gürcüstanda prezident xalq tərəfindən birbaşa seçilmir. Oktyabrda keçiriləcək parlament seçkilərindən sonra yeni prezident 300 nəfərdən ibarət parlament üzvləri və regionların təmsilçiləri tərəfindən seçiləcək.

***Pünhan ƏFƏNDİYEV***


## "Rabitəbank" ASC səhmdarlarının nəzərinə!

"Rabitəbank" ASC Müşahidə Şurasının 24 iyul 2024-cü il tarixli, 62 nömrəli qərarına əsasən, 2024-cü il avqust ayının 30-u, saat 17.00-da bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Yaradılması və tərkibinin dəyişdirilməsinə aid qərarvermə səlahiyyəti Müşahidə Şurasına həvalə edilmiş idarəetmə orqanları istisna olmaqla, bankın digər idarəetmə orqanlarının tərkibinin yeni redaksiyada təsdiq edilmiş "Banklarda Korporativ İdarəetmə Standartları"nın tələblərinə uyğun təsdiqi.
2. Təşkilati və cari məsələlər.

Yığıncağın keçiriləcəyi ünvan– Bakı şəhəri, 28 May küçəsi 33.

## "Ticarət Mərkəzi – 6" ASC səhmdarlarının nəzərinə!

9 sentyabr 2024-cü il saat 10.00-da "Ticarət Mərkəzi – 6" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və illik hesabatın təsdiqi.
2. Digər məsələlər.

Ünvan – Bakı, 3-cü mikrorayon, Alı Mustafayev küçəsi 23/24.

## "AKSERMAN" ASC səhmdarlarının nəzərinə!

9 sentyabr 2024-cü il saat 11.00-da Ağcabədi şəhəri, M.Ə.Rəsulzadə küçəsi 157 nömrəli ünvanda "AKSERMAN" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2023-cü il üçün fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

**İdarə heyəti**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 157 (30561) 27 iyul 2024-cü il, şənbə

# “Paris-2024”: Olimpiya həyəcanı başlandı



## Avstraliyalı otüstü xokkeyçinin fədakarlığı

**Builki Olimpiya Oyunları, demək olar ki, dünyanın bütün idmançılarının diqqətini cəlb edib, hər kəs orada iştirak etməkdə maraqlı olub. Ancaq avstraliyalı otüstü xokkeyçi Mett Dousonun Olimpiadada iştirak etmək üçün göstərdiyi canfəşanlıq – barmağını amputasiya etdirməsi idman dünyasını şoka salıb.**



M.Douson iki həftə əvvəl Pertdə məşq edərkən sağ əlinin barmağını sındırıb və həkimlər tam sağalmanın aylar çəkəcəyini söyləyib. Lakin 30 yaşlı idmançı üçüncü dəfə Olimpiadada iştirak etmək arzusunu reallaşdırmaq üçün barmağını oynağından kəsərək atıb. Bu, həm komanda yoldaşlarını, həm də məşqçisini heyrətə salıb. Zədəsindən cəmi 16 gün sonra, şənbə günü o, Argentina ilə qarşılaşmaq üçün komandası ilə meydanda olacaq.

İdmançı bildirib ki, paltardəyişmə otağında barmağının sındığını görəndə zədəsinin nə qədər ciddi olduğunu anlayıb və huşunu itirib. Həmin an o, olimpiya arzusunun bitdiyini düşünüb. Lakin plastik cərrahla məsləhətləşdikdən sonra çıxış yolu tapıb. Cərrah ona barmağın bərpası üçün əməliyyatın uzun vaxt aparacağını deyib. Tam funksiyanın bərpa oluna bilməyəcəyini öyrənən idmançıya deyilib ki, barmağı kəsildikdən 10 gün sonra o, olimpiadada iştirak edə bilər.

M.Douson tələsik qərarını belə izah edib: “Bilirəm ki, karyeramın sonuna yaxınlaşıram və bu, mənim son Olimpiadam ola bilər”.

Komandanın kapitanı Aran Zalevski bildirib: “Onun xəstəxanaya getdiyini və barmağını kəsdiyini eşitdik. İnsanların burada olmaq üçün böyük fədakarlıqlar etdiyini bilirik”.

M.Douson 2018-ci il Birlik Oyunları ərəfəsində ciddi zədə alıb, xokkey çubuğu ilə vurulduqdan sonra bir gözünü itirmək təhlükəsi ilə üzləşib. Buna baxmayaraq, o, həmin turnirdə qızıl medal qazanan Avstraliya üçün oynamağa davam edib və Tokio Olimpiadasında gümüş medal qazanıb.

**Dünən Paris-2024 Yay Olimpiya Oyunlarının rəsmi açılış mərasimi keçirilib.**

Fransa paytaxtındakı məşhur Sena çayında təşkil olunan tədbir Bakı vaxtı ilə saat 21:30-dan başlayaraq yayımlanıb. Mərasim minlərlə idmançını daşıyan 85 gəminin Austerlitz körpüsündən hərəkəti ilə başlayıb və 6 kilometrlik məsafəni əhatə edib. Qeyd edək ki, açılış mərasimi ilk dəfə olaraq yarışların baş tutduğu stadiondan kənarda keçirilib.

Azərbaycan komandası ölkələrin paradında 16-cı sırada yer alıb. Ölkəmizin bayraqdarları cüdoçu Gültac Məmmədəliyeva və boksçu Məhəmməd Abdullayevdir. Olimpiya Oyunlarının vətəni hesab olunan Yunanıstan yığması parada birinci sırada çıxıb. Fransa isə ev sahibi ölkə kimi sonuncu olub.

Olimpiadada neytral statusda yarışacaq Rusiya və Belarus idmançıları isə açılış mərasimində iştirak etməyiblər.

Xatırladaq ki, Azərbaycan millisi budəfəki Oyunlarda 48 idmançı ilə təmsil olunur. Yığma 15 idman növü üzrə 17 proqramda çıxış edəcək. İdmançılarımızın hər birinə ürəkdən uğurlar arzulayırıq.

## Cüdoçularımıza böyük ümidlər bəsləyirik

Bu gün Olimpiya proqramının ən maraqlı və baxımlı idman növlərindən biri hesab olunan cüdo yarışları start götürür. Təkcə döyüş sənəti deyil, həm də güclü fəlsəfi anlayış olan bu gözəl idman növünün 1882-ci ilə qədər keçmişə uzanan zəngin tarixi var. Məhz o zaman Tokioda yapon Jigoro Kano Buddist məbədində məktəb qurub və onu “Kodokan” adlandırıb.

Qeyd etmək lazımdır ki, cüdonun banisi uzun illər idmanın fədakar təbliğatçısı olub. Artıq 1886-cı ildə cüdo Yaponiyanın polis və hərbi akademiyalarında, sonra məktəblərdə və universitetlərdə tədris olunurdu. XIX əsrin sonlarından isə Kano Avropada da cüdonu təbliğ etməyə başlayıb və Fransada ilk məktəbi açıb.

Cüdo xüsusilə XX əsrin ikinci yarısında Olimpiya hərəkatı çərçivəsində inkişaf etməyə başlayıb. 1951-ci ildə Beynəlxalq Cüdo Federasiyası yaradılıb. 5 il sonra 20-dən çox ölkədən nümayəndənin iştirak etdiyi ilk Dünya çempionatı keçirilib. Artıq bütün dünyada populyarlıq qazanan cüdo 1964-cü ildə Olimpiya Oyunlarının proqramına daxil edilib. Qadın cüdosu isə 1992-ci ildə Olimpiya ailəsinin üzvü olub.

Bu gün 180-ə yaxın ölkə Beynəlxalq Cüdo Federasiyasının üzvüdür. Budəfəki yarışlarda 5 qitə üzrə 122 ölkədən cüdoçular iştirak edirlər ki, bu da Oyunlara qatılan bütün milli Olimpiya komitələrinin idmançı heyətinin 60 faizini təşkil edir. Yeri gəlmişkən, Olimpiya Oyunlarında cüdo yarışları kişilər üçün 7, qadınlar üçün eyni sayda çəki dərəcəsində, üstəlik, qarışıq komanda turnirində keçirilir. Ümumilikdə, olimpiadada iştirakçılar 15 dəst medal uğrunda mübarizə aparacaqlar.

Olimpiadalarda komandamızın iştirakına gəldikdə, kişilərdən ibarət yığmamız dünyanın ən güclülərindən sayılır. Azərbaycanda Cüdo Federasiyası 1972-ci ildə yaradılsa da, ən böyük nailiyyətlər müstəqillik dövründə əldə edilib. Olimpiya Oyunlarında ilk qızıl medalı “Barselona-1992”də Azərbaycan cüdo məktəbinin yetirməsi Nazim Hüseynov əldə edib. 2008-ci ildə Pekin Olimpiadasında Elnur Məmmədli parlaq qələbə qazanaraq Olimpiya çempionu olub. Həmin yarışda Mövlud Mirəliyev bürünc medala yiyələnib.

2013-cü ildə Elxan Məmmədov müstəqil Azərbaycanın cüdo üzrə ilk dünya çempionu kimi adını ölkənin idman tarixinə yazıb. Rüstəm Orucov və Elmar Qasımov “Rio-2016”da gümüş medala layiq görülüblər. “Tokio-2020”də isə qadın cüdoçumuz İrina Kindzerskaya bürünc mükafat qazanıb.

Fəxrlə bildirmək istərdik ki, Paris Olimpiadasında kişi komandamız bütün çəki dərəcələrində təmsil olunur. Qadın yığmamızın isə 2 üzvü yarışlarda mübarizə aparacaq. Yarışın ilk günündə kişilər arasında 60 kiloqram çəki dərəcəsində mükafatçılar müəyyənləşəcək. Səkkizdəbir finaldan yarışa qatılacaq təmsilçimiz Balabəy Ağayev Simon Zulu (Zambiya) – Von Jin Kim (Cənubi Koreya) cütünün qalibi ilə görüşəcək.

Xatırladaq ki, B.Ağayev bu il Avropa çempionatında gümüş, Bakı və Tbilisidə keçirilmiş “Böyük dəbilqə” turnirlərində bürünc medal qazanıb. Onun rəqibi – zambiyalı cüdoçu Afrika Oyunlarında və qitə çempionatında bürünc medallar əldə edib.

Cənubi koreyalı isə ötənilki Bakı “Böyük dəbilqə” turnirində bürünc, Daşkənddəki analoji yarışda isə qızıl medal əldə edib. Komandamızın digər üzvü Leyla Əliyeva (48 kq) isə ilk görüşündə Xalimajon Kurbanova (Özbəkistan) ilə qarşılaşacaq. Leyla Əliyeva ötən il Abu-Dabidə keçirilmiş “Böyük dəbilqə” turnirində bürünc medala sahib olub. Onun rəqibi bu il Bakıda, ötən il isə Qazaxıstanda keçirilmiş “Böyük dəbilqə” yarışlarında 3-cü yeri tutub.

Oyunların cüdo üzrə fərdi yarışları iyulun 27-dən avqustun 2-dək davam edəcək. İlkin görüşlər saat 12:00-da, final bloku isə hər gün saat 18:00-da başlayacaq.

## “Paris-2024” Olimpiya medallarının dəyəri: qızıl medal min dollar həddindədir

**2024-cü il Paris Yay Olimpiya və Paralimpiya oyunlarında 5084 medal veriləcək. Bunlardan hələlik neçəsinin qızıl, gümüş və bürünc olacağı məlum deyil. Lakin hər bir medalın tərkibi və maya dəyəri məlumdur.**

Olimpiadanın rəsmi saytında verilmiş məlumata görə, hər medalın diametri 85 millimetr, qalınlığı 9,2 millimetrdir. Medalların dizaynı Beynəlxalq Olimpiya Komitəsi ilə razılaşdırılıb. Lakin budəfəki olimpiya medallarını başqalarından fərqləndirən bir xüsusiyyət də var. Onların hər birinin üzərinə Eyfel qülləsinin bərpası zamanı dəyişdirilmiş metal parçaları bərkidiləcək. Bu metal parçası metropol Fransanın xəritədəki təsvirinə uyğun olaraq altıbucaqlı şəklindədir.

Medalların kütləsinə gəlincə, qızıl medal 529 qram, gümüş medal 525 qram, bürünc isə 455 qramdır.

Qiymətlər də bir-birindən kəskin fərqlənir. Bürünc medalın maya dəyəri 10 manatdan azdır. Gümüş medal Fransanın vergi ödəyicilərinə 868 manata başa gəlib. 529 qramlıq qızıl medalın maya dəyəri isə bugünkü kursla, təxminən, 1640 manatdır.




Bir vacib məqamı da qeyd etmək yerinə düşər. Bürünc medal qırmızı latundan tökülür. Onun hazırlanması asan və ucuz başa gəlir. Gümüş medal 920 əyarlı metaldan tökülür və üzərində zərgərlər işləyir. Ən nüfuzlu və bahalı olan qızıl medal isə 6 qram xalis qızıl və 523 qram gümüşdən ibarət xəlitədən hazırlanır.

Medalların dəyəri Tokio Oyunları ilə müqayisədə artıb. Qızıl medal min dollar həddə yaxınlaşır. Qızıl medallar Tokio Oyunlarında 763 dollardan 935 dollara qədər, gümüş mükafatların dəyəri də 415 dollardan 473 dollara qədər artıb.

Hava

## Abşeronda yağmursuz, bölgələrdə yağıntı, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 27-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**

Şimal-qərb küləyi əsəcək, səhərdən arabir güclənəcək. Gecə 19-24°, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunundan 757 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 50-60 , gündüz 70-75 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən dağlıq və dağətəyi rayonlarda arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir



güclənəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 30-35°, dağlarda gecə 12-17°, gündüz 17-22° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*Səhifəni hazırladılar:*
*Məsaim ABDULLAYEV,*
*Paşa ƏMİRCANOV,*
*Leyla QURBANOVA*
*XQ*

*“Şərur MTK” tərəfindən İsayev Vüqar Yolçu oğlunun adına Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Talıblı küçəsi 7-ci blok, 686 nömrəli mənzilə verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Əhməd, Samir və Munir Vəliyevlər Natiq və Cəmil Əmirovlara anaları

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Zaqataladan Mübariz Əhmədzadə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqataladan Mübariz Əhmədzadə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayevə anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3169
SİFARİŞ 1631
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00